QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 132 (5852) **24 iyul** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Azərbaycan Almaniya üçün Cənubi Qafqazda ən mühüm iqtisadi tərəfdaşdır”

*Prezident İlham Əliyev Almaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Səh 2

4

“Azərbaycan və Çin xalqları arasında əlaqələr tarixi köklərə malikdir”



4

Çin nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının üzvü Mübariz Abdullayevin ailəsinin qonağı olub



13

Müxalifətin bazarı və azarı



# “Azərbaycan Almaniya üçün Cənubi Qafqazda ən mühüm iqtisadi tərəfdaşdır”

*Prezident İlham Əliyev Almaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniqin etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, səfir Volfqanq Maniq etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, ticarət, turizm və digər sahələrdə uğurla inkişaf etdiyini bildirərək əlaqələrimizin bundan sonra daha da genişlənməsi üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev münasibətlərimizin inkişafında yüksək səviyyəli səfərlərin önəminə toxunaraq ötən il Federal Kansler xanım Angela Merkelin Azərbaycana səfəri zamanı ikitərəfli münasibətlərin inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını qeyd etdi və bildirdi ki, bu səfər əlaqələrimizin daha da genişlənməsinə əsaslı təkan vermişdir. Almaniya şirkətlərinin uzun illərdir Azərbaycanda sənaye, infrastruktur, kənd təsərrüfatı və digər sahələrdə uğurlu fəaliyyət göstərdiyini bildirən dövlətimizin başçısı bu şirkətlərin qeyri-enerji sektorunda, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində də fəal iştirak etdiklərini vurğuladı. Prezident İlham Əliyev qeyri-enerji sektorunun inkişafının Azərbaycanda prioritet sahə olduğunu bildirərək bu istiqamətdə son illər böyük uğurlar qazanıldığını dedi.

Ölkələrimiz arasında mədəni-humanitar əlaqələrin vacibliyinə toxunan Prezident İlham Əliyev 200 il bundan əvvəl Azərbaycanda məskunlaşmış almanların mədəni irsinə dövlətimiz tərəfindən qayğı göstərildiyini bildirdi.

Dövlətimizin başçısı Volfqanq Maniqin fəaliyyəti dövründə əlaqələrimizin uğurlu inkişafının davam etdiriləcəyinə ümidvar olduğunu dedi.

Ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafına toxunan səfir Volfqanq Maniq Azərbaycanın Almaniya üçün Cənubi Qafqazda ən mühüm iqtisadi tərəfdaş olduğunu vurğulayaraq, ölkəsinin Azərbaycanın enerji, sənaye və qeyri-neft sahələrinin inkişafında, iqtisadiyyatın şaxələndirilməsi üzrə əməkdaşlıqda maraqlı olduğunu bildirdi. Volfqanq Maniq, öz növbəsində, 200 il bundan öncə Azərbaycanda məskunlaşmış almanların tarixi-mədəni irsinin qorunub saxlanılması məqsədilə Azərbaycan tərəfindən görülən işlərin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

# “Azərbaycanla Çin arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Çinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Qo Minin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, xanım Qo Min etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.***



Prezident İlham Əliyev Azərbaycanla Çin arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək yüksək səviyyəli görüşlərin əlaqələrimizin inkişafında rolunu qeyd etdi. Bu ilin aprelində Pekində keçirilən “Bir kəmər, bir yol” beynəlxalq forumunda iştirak etmək üçün Çinə səfərini xatırlayan Prezident İlham Əliyev bu səfər zamanı Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünün ölkələrimizin ikitərəfli əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını bir daha göstərdiyini qeyd etdi. Dövlətimizin başçısı bu səfər çərçivəsində iqtisadiyyat, sənaye, investisiya sahələrini əhatə edən 10 mühüm sənədin imzalanmasının ikitərəfli münasibətlərin daha da genişlənməsi baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev, eyni zamanda, 2015-ci ildə Çin Xalq Respublikasına dövlət səfərinin əlaqələrimizin inkişafında mühüm rol oynadığını diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanla Çinin iqtisadi əməkdaşlığı uğurla inkişaf edir və bu baxımdan bu yaxınlarda Çinin Sian şəhərindən Azərbaycana yük qatarının gəlməsi nəqliyyat sahəsində əlaqələrin yaxşı perspektivlərə malik olduğunu nümayiş etdirir. Prezident İlham Əliyev, eyni zamanda, bildirdi ki, Çindən Azərbaycana gələn turistlərin sayının artması da əlaqələrin inkişaf etməsinin yaxşı göstəricisidir.

Səfir Qo Min, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Qo Min ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğu bir dövrdə Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyduğunu dedi. Səfirlik fəaliyyəti dövründə Prezident İlham Əliyevin Çin Xalq Respublikasına son səfəri zamanı Çin Xalq Respublikasının Sədri Si Cinpinlə əldə olunmuş mühüm razılaşmaların reallaşdırılması istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi. Səfir mühüm məsələlərlə bağlı ölkələrimizin bir-birini dəstəkləməsini münasibətlərimizin inkişafının mühüm göstəricisi kimi dəyərləndirdi. Azərbaycanın çox gözəl ölkə olduğunu bildirən Qo Min respublikamıza Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bundan sonra da uğurlu inkişaf arzuladı.

Dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.

# "Azərbaycanla Malayziya arasında siyasi sahədə əlaqələr uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Malayziyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Malayziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yubazlan Bin Yusofun etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, səfir Yubazlan Bin Yusof etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycanla Malayziya arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirərək ölkəmizin iqtisadi, ticarət, investisiya, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycanla Malayziyanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Azərbaycan Prezidenti İlham Əliyev Yubazlan Bin Yusofun səfirlik fəaliyyəti dövründə əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Yubazlan Bin Yusof Malayziyanın ali rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı. Yubazlan Bin Yusof fəaliyyəti dövründə münasibətlərimizin inkişafı, xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi. Dövlətimizin başçısı Malayziyanın ali rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın ali rəhbərliyinə çatdırmağı xahiş etdi.



# "Çoxlu sayda İsveçrə şirkətləri Azərbaycanda uğurlu fəaliyyət göstərir"

*Prezident İlham Əliyev İsveçrənin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Muriel Peneveyrenin etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, səfir Muriel Peneveyre etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycanla İsveçrə arasında əlaqələrin yüksək səviyyədə olduğunu və fəal dialoqun aparıldığını qeyd etdi. Dövlətimizin başçısı İsveçrə Prezidenti ilə bu ilin yanvarında keçirdiyi görüşü məmnunluqla xatırladı. Prezident İlham Əliyev İsveçrə Prezidentlərinin Azərbaycana səfərlərinin, Davos Forumu çərçivəsində yüksək səviyyəli mütəmadi görüşlərin əlaqələrimizin möhkəmləndirilməsinin yaxşı nümunəsi olduğunu dedi. Dövlətimizin başçısı iqtisadi əməkdaşlıq, qarşılıqlı investisiya qoyuluşu sahələrində əlaqələrin dinamik inkişaf etdiyini bildirdi, İsveçrənin çoxlu sayda şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyət göstərdiyini, mühüm layihələrin icrasında iştirak etdiklərini qeyd etdi.

Azərbaycanda səfir təyin olunmasından şərəf duyduğunu bildirən Muriel Peneveyre səfirlik fəaliyyəti dövründə əlaqələrin genişləndirilməsi, o cümlədən ölkəmizin regionlarının daha yaxşı tanınması istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi. O, bu yaxınlarda Bakıda keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etdiyini məmnunluqla qeyd edərək Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

# "Azərbaycanla Kolumbiya arasında siyasi əlaqələr yaxşı səviyyədədir"

*Prezident İlham Əliyev Kolumbiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenasın etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, səfir Luis Antonio Dimate Kardenas etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Kolumbiyanın səfirinin Azərbaycanda fəaliyyətə başlamasının önəmini qeyd edərək, bunu tərəfdaşlıq əlaqələrimizin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanla Kolumbiya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu bildirərək iqtisadi əməkdaşlığın genişləndirilməsinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı bu baxımdan ticarət, qarşılıqlı investisiya sahələrində əlaqələrin qurulması üçün yaxşı potensialın mövcud olduğunu dedi. Prezident İlham Əliyev Luis Antonio Dimate Kardenasın səfir kimi fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Luis Antonio Dimate Kardenas, ilk növbədə, Kolumbiya Respublikasının Prezidenti İvan Duke Markesin salamlarını dövlətimizin başçısına çatdırdı.





Luis Antonio Dimate Kardenas Azərbaycana səfir təyin olunmasından məmnunluq hissi keçirdiyini qeyd edərək ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəsürat yaratdığını dedi. Səfir Azərbaycanın sosial-iqtisadi sahələrdə böyük uğurlar qazandığını vurğulayaraq bununla bağlı dövlətimizin başçısına təbriklərini çatdırdı. O, ikitərəfli siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyərək iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Kolumbiya Respublikasının Prezidenti İvan Duke Markesin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kolumbiya Prezidentinə çatdırmağı xahiş etdi.

# "Azərbaycan və Çin xalqları arasında əlaqələr tarixi köklərə malikdir"

*Baş nazirin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin nümayəndə heyəti ilə görüşüb*







***İyulun 23-də Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Song Taonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Qonaqları salamlayan Əli Əhmədov Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası, eləcə də, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin daha da inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib. İki ölkənin xalqları arasında əlaqələrin tarixi köklərə malik olduğunu deyən Baş nazirin müavini qeyd edib ki, ötən dövr ərzində xalqlarımız böyük inkişaf yolu keçib. Onun sözlərinə görə, bu gün siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz uğurla davam edir. Münasibətlərimizin xoşniyyətli olduğunu söyləyən Əli Əhmədov əlaqələrin gələcək inkişafı üçün möhkəm bazanın mövcud olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyevin Çin Kommunist Partiyasının nümayəndə heyətini qəbul etdiyini xatırladan Əli Əhmədov dövlətimizin başçısının Çin ilə əlaqələrin inkişafına böyük önəm verdiyini söyləyib.

YAP Sədrinin müavini Azərbaycan ilə Çin arasındakı dostluq əlaqələrinin əhəmiyyətini vurğulayaraq, ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək Yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın inkişafına zəmin yaratdığını qeyd edib. Əli Əhmədov deyib ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının münasibətləri də uğurla davam edir və mütəmadi olaraq baş tutan qarşılıqlı səfərlər bu münasibətlərin inkişafına xidmət göstərir. Partiyalar arasında münasibətlər öz növbəsində dövlətlərin əlaqələrinin daha da gücləndirilməsinə müsbət təsir edir.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Song Tao isə Azərbaycana ilk dəfə səfər etdiyini deyərək ölkəmizin qonaqpərvərliyini, insanların xoş münasibətini yüksək dəyərləndirib. O bildirib ki, Prezident İlham Əliyevlə görüşdə iki ölkə arasında münasibətlərin mövcud durumu və əlaqələrimizin inkişafına dair geniş fikir mübadiləsi aparılıb.

Song Tao qeyd edib ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. Qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf etdiyini diqqətə çatdırıb və Çinin Azərbaycanın uğurlarına sevindiyini söyləyib.

Song Tao bu ilin aprelində Pekində keçirilən "Bir kəmər, bir yol" beynəlxalq forumunda Prezident İlham Əliyevin iştirakının önəmini qeyd edib. Onun sözlərinə görə, hər iki ölkənin liderləri qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi üçün uğurlu siyasət həyata keçirirlər. O, Çin Kommunist Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb. Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Əkram Zeynallı görüşdə iştirak etmişdir.



# Çin KP MK-nın nümayəndə heyəti Fəxri Xiyabanda

***Yeni Azərbaycan Partiyasının dəvəti ilə Azərbaycanda səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sonq Taonun başçılıq etdiyi nümayəndə heyəti iyulun 23-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***



Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər qoyublar. Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Çin nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının üzvü Mübariz Abdullayevin ailəsinin qonağı olub

***Ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Song Taonun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 23-də Yeni Azərbaycan Partiyasının üzvü Mübariz Abdullayevin ailəsinin qonağı olmuşdur.***



Sadə bir Azərbaycan vətəndaşının ailəsi və sosial həyatı ilə tanışlıq xarakteri daşıyan bu görüşdə xalqlarımız arasında dərin tarixi bağlantılardan, ümumi Şərq mədəniyyətinin çalarlarını özündə əks etdirən adət-ənənələrdən, qədim tarixə malik qarşılıqlı münasibətlərdən bəhs edilmişdir.

Mübariz Abdullayev Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında inkişaf etməkdə olan əlaqələrin, hər iki ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi siyasətin xalqlarımızın mənafeyinə uyğun olduğunu xüsusi diqqətə çatdırmışdır.



YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı Mübariz Abdullayevin mənzilində çay süfrəsi arxasında keçirilən bu görüşün Çin nümayəndə heyətində yüksək təəssürat yaratdığını qeyd etmişdir.

# Məhkəmə-hüquq islahatlarının yeni mərhələsi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir, yeni ictimai münasibətlər yaranır, mövcud olanlar isə keyfiyyətcə yeni xarakter alır. İctimai həyatda münasibətlərin yenilənməsi onların ədalətli, səmərəli və çevik tənzimlənməsi üçün müvafiq hüquqi norma və mexanizmlərin təkmilləşdirilməsini zəruri edir. Bu istiqamətdə həyata keçirilən və keçiriləcək işləri Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov AZƏRTAC-a şərh edərək deyib:***



-Möhtərəm cənab Prezident cari ilin mart ayında məhkəmə-hüquq islahatlarına ciddi ehtiyac olduğunu bəyan edərək onların yeni mərhələsinin başlanmasına təkan vermişdir. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı isə bu prosesin əsas istiqamət və prioritetlərini müəyyən etmişdir.

Fərmanda verilmiş tapşırıq və tövsiyələrin həyata keçirilməsi məqsədilə intensiv iş aparılmış, statistik məlumatlar təhlil edilərək ümumiləşdirilmiş, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilmişdir. Azərbaycan Respublikasının Prezidenti islahatlarının institusional komponentini əhatə edən ilk qanunvericilik aktları paketini 2019-cu il iyulun 20-də imzalamışdır.

İslahatların Fərmanda nəzərdə tutulan digər komponentləri, yəni, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı növbəti normativ hüquqi aktlar üzərində hazırda hərtərəfli iş aparılır, habelə praktiki sahədə verilən tapşırıq və tövsiyələrin yerinə yetirilməsi istiqamətində tədbirlər davam etdirilir.

İmzalanan normativ hüquqi aktlar paketinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa, Mülki-Prosessual, İnzibati-Prosessual və Cinayət-Prosessual məcəllələrə dəyişikliklərin edilməsini nəzərdə tutan qanunlar, habelə həmin qanunların tətbiqini təmin edən müvafiq sərəncam və fərmanlar daxildir.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklər ixtisaslaşmış məhkəmələrin iki sisteminin - inzibati məhkəmələr və kommersiya məhkəmələrinin yaradılmasının hüquqi təməlini formalaşdırır. Qeyd edilən qanunlar qüvvəyə mindiyi gündən, yəni, 2020-ci il yanvarın 1-dən etibarən mövcud inzibati-iqtisadi məhkəmələr sistemi ləğv ediləcəkdir.

Məsələyə bir qədər tarixi rakursdan yanaşaq. 2005-ci ildə "İnzibati icraat haqqında" Qanunun, 2009-cu ildə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin qəbulu və növbəti il inzibati-iqtisadi məhkəmələrin yaradılması ölkənin məhkəmə-hüquq sisteminin inkişafında əhəmiyyətli mərhələ olmuşdur. Bununla istənilən müasir cəmiyyətdə həyatın ən mühüm aspektlərindən olan inzibati münasibətləri, yəni, inzibati orqanlarla fiziki və ya hüquqi şəxslər arasındakı münasibətləri tənzimləyən normativ bazanın formalaşdırılması prosesi yekunlaşdırılmış, inzibati münasibətlərdən irəli gələn mübahisələrə məhkəmələrdə baxılması qaydası təsbit edilmişdir.

Ötən dövr ərzində inzibati-iqtisadi məhkəmələr inzibati mübahisələrə baxılması sahəsində geniş təcrübə toplamış, iqtisadi mübahisələrin araşdırılması praktikasını daha da inkişaf etdirmişlər.

Bununla belə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ardıcıl olaraq həyata keçirilən dövlət idarəetməsi sisteminin təkmilləşdirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə, xüsusilə onun qeyri-neft sektorunun inkişafına, kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlmiş islahatlar inzibati və iqtisadi sahələrdə ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılmasını labüd etmişdir.

Qeyd edilən sahələrdə yaranan mübahisələrə dair məhkəmə qərarlarının keyfiyyətinin artırılması üçün hakimlər yüksək peşəkarlıq səviyyəsinə, daha dərin hüquqi biliklərə və zəngin təcrübəyə malik olmalı, həm inzibati, həm də iqtisadi hüquq münasibətlərinin ən son təkamül meyllərindən xəbərdar olmalıdırlar.

Məhz bu məqsədə nail olmaq üçün "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında ədalət mühakiməsi sahəsində ixtisaslaşmanın dərinləşdirilməsi mühüm vasitə qismində müəyyən edilmişdir.

Hazırda fəaliyyət göstərən inzibati-iqtisadi məhkəmələr sistemi yaradıldığı dövr üçün mütərəqqi yenilik olsa da, artıq öz missiyasını başa çatdırmış hesab edilə bilər. Həm inzibati, həm iqtisadi münasibətlərin hazırkı səviyyəsi və onların inkişaf potensialı baxımından müvafiq məhkəmələrin və hakimlərin daha yüksək ixtisaslaşma dərəcəsinə nail olunması vacibdir.

İkili, yəni, ümumi (publik) və xüsusi hüquqi təbiətə malik inzibati-iqtisadi məhkəmələr əvəzinə ayrıca inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin yaradılması, məhkəmə-hüquq islahatlarının indiki mərhələsində ixtisaslaşmanın dərinləşdirilməsi üçün optimal üsul hesab edilir.

İnzibati məhkəmələr müstəsna olaraq inzibati orqanların hərəkət və hərəkətsizlikləri, inzibati aktları ilə bağlı olan mübahisələrə, o cümlədən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında nəzərdə tutulduğu kimi vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə baxacaqdır. Bununla da Fərmanda verilmiş tapşırıq, yəni, sahibkarların bütün dövlət qurumları, inzibati orqanlarla mübahisələrinə bu sahədə ixtisaslaşmış vahid bir məhkəmə instansiyasında baxılmasının təmin edilməsi üçün institusional çərçivənin yaradılması göstərişi yerinə yetirilmiş olacaqdır.

Kommersiya məhkəmələri isə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mülki mübahisələrə baxmaqla, bu zaman mülki prosessual normaları rəhbər tutacaqlar. Bundan əlavə, prosessual qanunvericiliyə edilən dəyişikliklər nəticəsində kommersiya məhkəmələrinin aidiyyətinə həmçinin sahibkarlıq fəaliyyəti subyektlərinin maraqlarına toxunan və hazırda rayon (şəhər) məhkəmələri tərəfindən baxılan bir sıra digər kateqoriyalara daxil olan işlər də aid ediləcəkdir. Rayon (şəhər) məhkəmələri isə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmayan bütün digər mübahisələrə dair işlərə baxacaqlar.

Proqnozlaşdırmaq olar ki, kommersiya məhkəmələrinin yaradılması sahibkarların hüquqlarının təmin edilməsinin səmərəliliyini artırmaqla bütövlükdə ölkədə biznes mühitinin inkişafına önəmli töhfə verəcəkdir.

Beləliklə, ayrıca inzibati və kommersiya məhkəmələrinin yaradılması həm onlarda ixtisaslaşmanın artırılmasına şərait yaradacaq, həm də rayon (şəhər) məhkəmələrinin üzərinə düşən iş yükünün müəyyən dərəcədə azaldılmasına imkan verəcəkdir ki, bununla da bütövlükdə məhkəmə sistemində iş yükünün daha balanslaşdırılmış olmasına yardım edəcəkdir.

Ədalət mühakiməsi sistemi daxilində iki yeni elementin yaradılması yalnız birinci instansiya məhkəmələri səviyyəsini əhatə etsə natamam olardı və qarşıya qoyulmuş məqsədlərə çatmağa imkan verməzdi. Bu səbəbdən yeni dəyişikliklər bütün instansiya məhkəmələrini əhatə edir.

Belə ki, hazırda Ali Məhkəmədə və apellyasiya məhkəmələrində mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiyalar fəaliyyət göstərir. İnzibati və kommersiya məhkəmələri sistemlərinin ayrılması prinsipinin apellyasiya və kassasiya instansiyalarında da öz məntiqi davamını tapması üçün mövcud məhkəmə kollegiyalarının quruluşunda müvafiq dəyişikliklər edilərək, yuxarı instansiya məhkəmələrində də iki müvafiq kollegiya yaradılır.

Yuxarı instansiya məhkəmələrində fəaliyyət göstərən digər iki kollegiya, yəni, cinayət kollegiyası və hərbi kollegiya cinayət-prosessual normaları rəhbər tutmaqla aşağı instansiya məhkəmələrinin cinayət işləri üzrə hökm və digər yekun qərarlarından şikayət və ya protestlərə baxır. Burada yeganə fərqli cəhət hərbi kollegiyaların müharibə və hərbi xidmət əleyhinə olan cinayətlər, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayətlər üzrə ixtisaslaşmasıdır. Həmçinin statistik rəqəmlərin müqayisəsi göstərir ki, hərbi kollegiyalarda baxılan işlərin sayı kifayət qədər azdır.

Qeyd edilənləri nəzərə alaraq, apellyasiya və kassasiya instansiya məhkəmələrində hərbi və cinayət kollegiyalarının birləşdirilməsi nəzərdə tutulmuşdur. Burada xüsusi vurğulamaq lazımdır ki, bu dəyişiklik birinci instansiya hərbi məhkəmələrinin fəaliyyətini əhatə etmir, onlar hazırki qaydada fəaliyyətlərini davam etdirəcəklər.

Bundan əlavə, prosessual qanunvericiliyə edilmiş dəyişikliklərin digər bir istiqaməti işin məhkəmə aidiyyətinə dair mübahisələrə baxılma prosedurlarının səmərəliliyinin artırılması və müddətlərinin qısaldılması ilə bağlıdır.

Hazırda işin inzibati-iqtisadi və ya rayon (şəhər) məhkəməsinə aid olmasına dair mübahisələrə ardıcıl olaraq üç instansiyada - birinci, apellyasiya və kassasiya instansiyalarında baxılır.

Məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması prosedurunun sadələşdirilməsi üçün belə mübahisələrə baxan instansiyaların sayının azaldılması nəzərdə tutulmuşdur. Yeni qanunla müəyyən edilmişdir ki, birinci instansiya məhkəmələrinin məhkəmə aidiyyətinə dair mübahisələr üzrə qərarlarından verilən şikayətləri birbaşa Ali Məhkəmə baxacaqdır.

Ali Məhkəmədə bu kateqoriyadan olan şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərin qarışıq tərkibində tərəflərin təqdim etdiyi sənədlər əsasında baxılacaqdır. Belə şikayətlərə baxılması üçün nəzərdə tutulmuş müddət də 2 aydan 10 günədək qısaldılır. Nəticədə aidiyyətlə bağlı mübahisələrə baxılmasında yubatma və süründürməçilik, heç bir zərurət olmadan aidiyyətlə bağlı çoxsaylı şikayətlərin verilməsi hallarının qarşısı alınacaqdır.

Nəzərdə tutulan dəyişikliklər bir tərəfdən məhkəmə kollegiyaları strukturunun optimallaşdırılmasına, digər tərəfdən isə istər cinayət işləri, istərsə də aidiyyətlə bağlı mübahisələr üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün daha əlverişli şəraitin yaradılmasına səbəb olacaqdır.

Ümumilikdə, qeyd edə bilərik ki, qəbul olunmuş qanunvericilik aktları paketi məhkəmə-hüquq islahatlarının hazırki mərhələsində aşağıdakı məqsədlərə nail olunmasına şərait yaradacaqdır:

-ayrıca inzibati və kommersiya məhkəmələri sistemlərinin yaradılması yolu ilə məhkəmələrdə ixtisaslaşmanın dərinləşdirilməsi;

-inzibati, kommersiya və rayon (şəhər) məhkəmələri arasında iş yükünün balanslaşdırılması;

-məhkəmə quruluşunun optimallaşdırılması;

-məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması prosedurlarının sadələşdirilməsi və müddətlərinin qısaldılması;

-məhkəmə aidiyyətinə dair mübahisələr üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün əlavə mexanizmlərin təsbit edilməsi.

Sonda bir daha vurğulanmalıdır ki, hazırda məhkəmə-hüquq islahatları çərçivəsində növbəti normativ hüquqi aktlar toplusu üzərində iş davam edir.

Bu sənədlər toplusuna cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, mülki prosessual qanunvericiliyin kompleks şəkildə təhlili və təkmilləşdirilməsi, Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırması üçün yeni mexanizmlərin təsbit edilməsi, məhkəmə ekspertizasının təyin edilməsi və keçirilməsi ilə bağlı müddəaların, habelə məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı qanunvericilik aktlarının layihələri daxil olacaqdır. Həmçinin məhkəmə, cinayət təqibi və məhkəmə qərarlarının icrası orqanlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının, o cümlədən "Elektron məhkəmə", "Elektron icra" sistemlərinin tətbiqinin genişləndirilməsinə yönəlmiş qanunvericilik və praktiki tədbirlər həyata keçiriləcəkdir.

Eyni zamanda, yeni məhkəmələrin yaradılması, apellyasiya və kassasiya instansiyası məhkəmələrində kollegiyaların tərkibinin dəyişməsi ilə bağlı müvafiq kadr islahatları da aparılacaqdır. Yeni hakim vəzifələrinə namizədlərin seçilməsi prosesi zamanı onların peşəkarlıq səviyyəsi qiymətləndiriləcək, müvafiq sahələrdə yüksək nəzəri və praktiki hazırlığının olmasına xüsusi diqqət yetiriləcəkdir. Bu isə dövrün tələbləri ilə ayaqlaşan hüquqşünasların hazırlanması üzrə işin gücləndirilməsini şərtləndirir, o cümlədən hüquq təhsili qarşısında yeni tələblər qoyur.

İctimai münasibətlər daim dəyişməkdədir. Yeni informasiya texnologiyalarının və innovasiyaların tətbiq edildiyi müasir dövrdə ictimai münasibətlərin inkişaf sürəti dəfələrlə artmışdır. Belə olan halda hətta ən mükəmməl qanun çoxşaxəli və mürəkkəb münasibətlərin bütün detallarını mütləq dəqiqliklə tənzimləyə bilməz. Bu baxımdan hüququn tətbiqi təcrübəsi xüsusi əhəmiyyət kəsb edir və hakimlər bu prosesdə olduqca böyük rol oynayırlar. Onlar məhkəmələrdə baxılan mübahisələri həll edərkən yalnız qanunun hərfi mənasını deyil, həmçinin ictimai münasibətlərin mahiyyətini və "qanunun ruhunu" nəzərə almalıdırlar. Yalnız bu halda məhkəmələr Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanında nəzərdə tutulmuş ideyaların həyata keçirilməsinə nail olacaq, hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və məhkəmə qərarlarının daha proqnozlaşdırılan olmasını təmin edəcəklər.

Bütövlükdə, qədəm qoyduğumuz məhkəmə-hüquq islahatları Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanında verilmiş tapşırıq və tövsiyələrə müvafiq olaraq, vətəndaşların hüquqlarının məhkəmələrdə daha etibarlı müdafiəsini təmin etməklə məhkəmələrə etimadın və məhkəmə sisteminin nüfuzunun daha da yüksəldilməsinə səbəb olacaqdır. Aparılan islahatlar ədalət mühakiməsinin keyfiyyətini və səmərəliliyini artırmaqla, ümumilikdə, hüquq sisteminin inkişafına mühüm təsir göstərəcəkdir.




# "DİN və Media" mövzusunda konfrans keçirilib

***Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Bakıda Milli Mətbuat Gününə həsr olunmuş "Din və media" mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının rəhbərliyi, Milli Məclisin deputatları, media təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Komitə sədri Mübariz Qurbanlı iyulun 23-də Ağdamın Ermənistan silahlı qüvvələri tərəfindən işğalından 26 il ötdüyünü xatırladaraq bildirib ki, düşmən qüvvələri digər rayonlarımızda olduğu kimi, Ağdamda da bütün tarixi, dini abidələri məhv edib, 17 məscidi tamamilə dağıdıb. Daha sonra Ağdamda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Milli Mətbuatın yaranma və inkişaf tarixinə nəzər salan M.Qurbanlı bildirib ki, ümummilli lider Heydər Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələrinə hər zaman xüsusi diqqət və qayğı göstərib.

O, hazırda Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ölkə mətbuatının daha da inkişafı məqsədilə həyata keçirdiyi tədbirlərdən söz açıb. Qeyd edib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, mətbuat sahəsində də inkişaf və tərəqqi əldə edilib.

Komitə sədri dini radikal qruplara qarşı ideoloji sahədə mübarizənin gücləndirilməsində, dini xurafata qarşı təbliğatda medianın önəminə də toxunub. Bildirib ki, ölkədə ictimai-siyasi sabitliyin qorunmasında hüquq-mühafizə orqanları ilə yanaşı, kütləvi informasiya vasitələrinin də rolu çox önəmlidir. Mediada milli maraqlar məsələsində həmrəyliyi görürük, bu da vacib məsələlərdən biridir. M.Qurbanlı qeyd edib ki, Azərbaycan dini tolerantlıq, multikultural dəyərlərin qorunması baxımından nümunəvi bir ölkədir, amma bəzi qrup və dairələr xaricdə sosial şəbəkələr vasitəsilə yanlış məlumatlar yaymağa cəhd edirlər. Bunun qarşısını almaq üçün bizim qrupumuz fəaliyyət göstərir və bu cür informasiyalar olduqda bunların yanlış olması barədə ictimaiyyət məlumatlandırılır.

Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov Azərbaycan xalqının və cəmiyyətinin həyatında mətbuatın çox böyük rol oynadığını deyib. O qeyd edib ki, Azərbaycan mətbuatı hər zaman milli və dini dəyərlərə hörmətlə yanaşıb. Azərbaycan mətbuatı nəinki İslam dininə, bütün dinlərə hörmətlə yanaşır və bu sahədə üzərinə düşən missiyanı layiqincə yerinə yetirir.

Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov Milli Mətbuat Günü münasibətilə Şeyxülislam Allahşükür Paşazadənin təbriklərini çatdırıb. O bildirib ki, QMİ bu cür tədbirlərin keçirilməsində maraqlıdır, çünki qurum olaraq əsas nizamnamə vəzifələrindən biri də İslam dininin təbliğ olunmasıdır. Bu baxımdan,

KİV-in müstəsna rolunun olduğunu bildirən Simran Həsənov vaxtaşırı düzgün, əsaslandırılmış, İslamın humanitar ideyalarına uyğun məlumatların cəmiyyətə ötürülməsini yüksək qiymətləndirib. Aparat rəhbəri İslam dinində sözə, qələmə verilən yüksək dəyəri Quran-i Kərim surəsi ilə əsaslandırıb. O bildirib ki, QMİ öz fəaliyyət sahəsində KİV ilə işgüzar əlaqələr qurur və mətbuatın köməyi ilə üzərinə düşən əsas vəzifələrin icrasını yüksək səviyyədə həyata keçirməyə çalışır.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu Prezident İlham Əliyevin mətbuata, jurnalistlərə göstərdiyi diqqət və qayğıdan söz açıb. O bildirib ki, Milli Mətbuat Günü münasibətilə dövlət başçısının Azərbaycanda nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat vəsait ayırması jurnalistlərin əməyinin yüksək qiymətləndirilməsinin sübutudur.

Daha sonra çıxış edən "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə dini radikalizmə qarşı mübarizə, milli-mənəvi, o cümlədən dini dəyərlərin, multikultural və tolerant ənənələrin qorunması və təbliği istiqamətində mətbuatın üzərinə düşən vəzifələr barədə danışıblar. Tədbirin sonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Mətbuat Şurasının Milli Mətbuat Günü münasibətilə yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında elan etdikləri "Din və media" mövzusunda yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.

***Ceyhun Rasimoğlu***

## "Şəki Xan Sarayı turistləri qəbul etməyə hazırdır"

"Şəki Xan Sarayı turistləri qəbul etməyə hazırdır. Şəki Xan Sarayında bərpa, bu-danma və təmizlik işləri yekunlaşıb". SİA-nın məlumatına görə, bu fikirləri Dövlət Turizm Agentliyinin Mətbuat xidməti verib. Mətbuat xidməti bildirir ki, hazırda saraya girişin bərpa olunması istiqamətində digər dövlət qurumları ilə razılaşdırılma prosesi gedir. Razılaşdırılma prosesi bitəndən sonra Şəki Xan Sarayı tam istifadəyə veriləcək.

Qeyd edək ki, iyulun 14-də Şəki Xan Sarayı ərazisində 1530-cu ilə aid ağacın təxminən 50 santimetr diametrində olan budaq qırılaraq sarayın həyətində olan turistlərin üzərinə düşmüşdü və hadisə nəticəsində 19 nəfər xəsarət almışdı.

## Mübariz Qurbanlı: "Azərbaycan dini tolerantlıq baxımından nümunəvi bir ölkədir"



"Sosial mediada dinlə bağlı yayılan yazılar bəzi hallarda bizi qane etmir." AZƏRTAC xəbər verir ki, bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı jurnalistlərə müsahibəsində deyib.

O bildirib ki, xüsusilə xaricdə olan şəxslər tərəfindən sosial media üzərindən Azərbaycandakı dini vəziyyətlə bağlı yazılan yazılarda, sosial şəbəkələrdə verilən məlumatlarda qərəz, Azərbaycan haqqında mənfi rəy formalaşdırmaq cəhdləri özünü göstərir. Əlbəttə, bunlar anti-Azərbaycan ünsürlərin fəaliyyətinin nəticəsidir. "Azərbaycan dini tolerantlıq baxımından, multikultural dəyərlərin qorunması baxımından nümunəvi bir ölkədir. Ancaq ölkəmizin əleyhinə olan qruplar, dairələr xaricdən Azərbaycan haqqında sosial şəbəkələr üzərindən yanlış məlumatlar yaymağa cəhd edirlər. Bunun qarşısını almaq üçün bizim xüsusi qrupumuz fəaliyyət göstərir və bu cür məlumatlar olduqda həmin qrup bu məlumatların yanlış olması barədə ictimaiyyəti məlumatlandırır",- deyə Komitə sədri vurğulayıb.

## ADA Universitetində XIII Bakı Yay Enerji Məktəbi başa çatıb



ADA Universitetinin Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin SOCAR və "BP Azerbaijan" şirkətləri ilə birgə təşkil etdiyi XIII Bakı Yay Enerji Məktəbi başa çatıb. Universitetdən AZƏRTAC-a bildirilib ki, bu il ikihəftəlik sertifikat proqramını ABŞ, Vyetnam, Türkiyə, Avstraliya, Macarıstan, Yunanıstan, Meksika daxil olmaqla 31 nəfərdən ibarət enerji sektorunun peşəkarları uğurla başa vurub.

ADA Universiteti tarixində ilk akademik proqramlardan biri kimi təsis edilən Bakı Yay Enerji Məktəbi enerji və ətraf mühit məsələləri üzrə təlim keçmək üçün dünyanın tanınmış alim, mütəxəssis və siyasətçilərini bir araya gətirir. Məktəb iştirakçıları mövzulara bağlı biliyi ilk məlumat qaynağından alaraq enerji və ətraf mühit, enerji hüququ və iqtisadiyyatı, neft-qaz sənayesində idarəçilik, Xəzər hövzəsinin yerli və qlobal kontekstdə qiymətləndirilməsi və SOCAR-ın inkişaf strategiyasına dair məsələlərlə geniş şəkildə tanış olurlar.

ADA Universitetinin ixtisasartırma proqramları üzrə prorektor müavini Aygün Hacıyevanın sözlərinə görə, XIII Yay Məktəbinin proqramı ənənəvi mövzularla yanaşı, dəyişən enerji bazarlarında qeyri-ənənəvi neft və qaz mənbələrini də diqqətə saxlayıb: "Enerji sektorunun ətraf mühitə artan təsirini nəzərə alaraq biz, dünyada və Azərbaycanda bu sahədə ən son texnoloji innovasiyalarla bağlı məlumatı da proqrama daxil etmişdik. ADA Universitetinin SOCAR və "BP Azerbaijan" ilə təşkil etdiyi Bakı Yay Enerji Məktəbi enerji sektorunda mükəmməl biliyi olmaqla yanaşı, gələcək meyilləri görə bilən mütəxəssislər hazırlayır".

## Boris Conson Böyük Britaniyanın yeni Baş Naziri oldu



Böyük Britaniyanın sabiq xarici işlər naziri Boris Jonson iyulun 23-də Mühafizəkarlar Partiyasının sədri seçilib. İyulun 24-də ona Kraliça II Elizabet tərəfindən hökuməti qurmaq səlahiyyəti veriləcək. BBC telekanalının saytında yer alan məlumatda deyilir ki, Tereza Meyin istefasından sonra Mühafizəkarlar Partiyasında liderliyə namizədlər arasında Boris Consonun adı birinci çəkilirdi. O, keçirilən səsvermə zamanı rəqibi Ceremi Hantı üstələyərək 46, 656 səsə qarşı 92,153 səslə qalib gəlib. Sabah Bukingem sarayında Baş Nazir səlahiyyətlərini aldıqdan sonra yeni hökumət başçısı kabinetini formalaşdıracaq. Yeni Baş Nazir öz ölkəsinin oktyabrın 31-də hətta razılaşma olmadan da Avropa İttifaqını tərk edəcəyini bəyan edib. Hazırkı nazirlərin bir neçəsi onun seçiləcəyi təqdirdə kabineti tək edəcəklərini bəyan edib.

## Eldəniz Səlimov: Azərbaycanla Çin arasında münasibətlər daha da genişlənir



"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əməkdaşlıq inkişaf etdikcə iki ölkənin münasibətləri daha da genişlənir". Bu fikri Milli Məclisin deputatı Eldəniz Səlimov deyib. E.Səlimov bildirib ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında iqtisadi, nəqliyyat, sənaye, kənd təsərrüfatı, sahələrinin qarşılıqlı inkişafı ilə əlaqədar bir sıra sənədlər imzalanıb. Onun sözlərinə görə, Prezidentimiz cənab İlham Əliyevin Çin Xalq Respublikasında keçirilən " Bir kəmər, bir yol" beynəlxalq forumda iştirak etməsi, Çin Xalq Respublikasının Sədri cənab Si Cinpi ilə görüşü və bu görüş zamanı imzalanan mühüm əhəmiyyətə malik sənədlər ölkəmiz arasındakı əməkdaşlığın inkişafına xidmət edir.

"Çin Komminist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun başçılıq etdiyi nümayəndə heyətinin Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi əlaqələrin inkişafına böyük təkan verəcək. Bakıda keçirilən "Si Cinpinin yeni dövr Çin səciyyəvi sosializm ideyası" mövzusunda konfransda da vacib məsələlər müzakirə olundu. Qədim İpək yolunun bərpası, Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizi Çinin Avropaya çıxışını daha da yaxınlaşdırmaqla iqtisadi inkişafın sürətləndirəcək. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji əməkdaşlıq uğurla davam edəcək"- deyə, deputat qeyd edib.

# İstirahət üçün hara gedək?



***Y**ay mövsümünün tam olaraq yarısını arxada qoysaq da, istirahətə getmək üçün ata-babalarımızın dediyi kimi "qora bişirən" ayı yəni avqust ayını gözləyənlər az deyil. Bir çoxlarımız iyul ayının sərin keçməsini bəhanə edir, digərlərimiz isə mövsümün son ayında istirahət etməyə üstünlük verdiyimiz üçün qışın yorğunluğunu avqust ayında çıxarmaqda qərarlıyıq. Çünki əksəriyyətimiz üçün istirahət edib, yenidən ofis işinə qayıtmaq perspektivi bir o qədər də xoş gəlmir. Ən pisi isə istirahət üçün hara gedək sualı ilə üz-üzə qalmaqdır.*







Bu məqsədlə SİA istirahət etməyi planlaşdıranlar üçün bir neçə turizm şirkətləri arasında aparılan sorğuya əsasən həm xaricdə, həm də daxildə yerləşən və daha çox üz tutulan yerləri, onların qiymətləri haqqında sizləri məlumatlandırmaq qərarına gəlib.

İlk onu qeyd edək ki, hər il olduğu kimi bu il də vətəndaşlarımız istirahət etmək üçün daha çox qardaş ölkə Türkiyəyə üz tuturlar. Belə ki, Türkiyə ərazisində yerləşən kurort zonalar Quş adası, Marmaris, Bodrum, Antalya, Çeşmə-Alaçatı favorit məkanlar olaraq qalır.

"Family" Turizm şirkətinin rəhbəri Fəridə Baxşəliyeva bildirib ki, mövsüm zamanı istirahət üçün biletlərin qiymətləri digər vaxtlarla müqayisədə nisbətən baha olur: "Bildiyiniz kimi, il ərzində yay istirahəti üçün müxtəlif kampaniyalar həyata keçirilir. Sevindiricidir ki, artıq Azərbaycanda da insanlar bu kampaniyalardan istifadə edərək istirahət biletlərini əvvəlcədən almaq şansından daha çox yararlanmağa başlayıblar. Çünki mövsüm zamanı həm biletlərin, həm də gedəcəkləri məkanda otellərin qiyməti daha baha olur".

Ötən illə müqayisədə istirahətə getmək üçün tələbatın xeyli artdığını deyən şirkət rəsmisi söyləyib ki, bu il Gürcüstana istirahətə gedənlərin sayında azlıq müşahidə olunur: "Buna səbəb Gürcüstanda qiymətlərin bahalaşmasıdır. Artıq orada da qiymətlər Türkiyə qiymətlərinə gəlib çatmaqdadır. Ona görə də Gürcüstanda istirahət emək üçün edilən sifarişlərin əksəriyyəti 3 ulduzlu otellər üçün nəzərdə tutulub. Belə ki, yalnız otel qiyməti 2 nəfər üçün 350 dollar təşkil edir. Biletlərin qiyməti isə bir nəfər üçün 300 manat təşkil edir. Bu baxımdan qonşu ölkənin 5 ulduzlu otelində istirahət etmək Türkiyə ilə müqayisədə daha baha başa gəlir".

F.Baxşəliyeva qeyd edib ki, Türkiyədə 2 nəfər üçün 5 ulduzlu oteldə (8 gün 7 gecə hər şey daxil) istirahət etmək 1700 dollardan başlayır: "İtaliya, Montenoqro, İsveçrə, Portuqaliya, Bolqariya, Yunanıstan və digər Avropa ölkələrində lyüks oteldə (8 gün 7 gecə səhər yeməyi də daxil olmaqla) müxtəlif istəklərdən asılı olaraq istirahət etmək isə 8000 avroya başa gəlir".

Apardığımız sorğu nəticəsində yaxın qonşu ölkələrə avtobuslarla həyata keçirilən müxtəlif turların olması da nəzərimizdən yayınmadı. Belə ki, istirahətini Batumi də etmək istəyənlər (3 gecə/4 gün) 169 AZN ödəməklə dincəlmək şansı əldə edə bilərlər. 8 gün Antalyada hər şey daxil olmaqla istirahətin qiyməti isə 289,5 günlük İstanbul- Samsun turu 159 dollara başa gəlir.

Yay mövsümündə ecazkar təbiət, mülayim dəniz və təmiz havaya malik olan Azərbaycanda da istrahətinizi istədiyiniz kimi təşkil edə bilərsiniz. Azərbaycanda Xəzərin sahilboyu ərazilərində, meşələrdə və dağlarda yerləşən istirahət və əyləncə məkanları günəşi, dənizi və qumu, təbiətin qoynunda seyrə çıxmağı və ağacların arasında cığırlarda gəzməyi, şəlalə altında çimməyi və atçılıq turlarını sevənlərə unudulmaz anlar yaşadacaq. Ölkəmizin bir çox turizm bölgələrində xeyli sayda müalicəvi termal və mineral bulaqlar var.

Araşdırmamız nəticəsində məlum oldu ki, ölkə ərazisində yayın dadını çıxarmaq istəyənlər daha çox avtobuslarla təşkil olunan günlük turlara üstünlük verirlər.

Belə ki, gün ərzində ölkəmizin müxtəlif bölgələrinə təşkil olunan turlar arasında 2 günlük Qəbələ - Şamaxı - Sakitgöl 79 , Qax- Şəki, Oğuz- Qəbələ turu 73, Mingəçevr- Göygöl 69 AZN, 1 günlük Qəbələ Nohur Göl - Oğuz Xal-Xal 24, Lənkəran - Lerik - Relax 25, Quba turu - 20, Dağ Şəlaləsi - Lahıc turu isə 22 AZN təşkil edir.

Hər kəsə xoş istirahətlər!

***Nailə Məhərrəmova***



# Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi layihələr gənclərin fəallığını daha da artırır

***Dövlət və cəmiyyət həyatında müəyyən rol oynayan, demokratik, hüquqi, sivil, dünyəvi dövlətçiliyin təməl prinsiplərindən, əsas atributlarından sayılan siyasi partiyalar, adətən, zərurətdən, milli tələbatdan yaranır. Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi nəcib amalı özünün siyasi idealı, əsas strateji xətti seçən Yeni Azərbaycan Partiyasının yaranması da tarixi zərurətdən, milli tələbatdan irəli gəlmişdir. Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın həyatında müstəsna rol oynayan, gələcəkdə də bu tarixi missiyanı şərəflə davam etdirməyə qadir, Ulu Öndər Heydər Əliyevin ideyalarından güc alan möhtəşəm bir siyasi təşkilatdır.***

Yeni Azərbaycan Partiyasının əvəzolunmaz Lideri Heydər Əliyev Azərbaycan milli dövlətçiliyinin möhkəmlənməsində, cəmiyyətin ümumi mənafelərini təmin edən idarəetmə sisteminin formalaşmasında mustəsna rol oynayan tarixi şəxsiyyətdir. Onun siyasi fəaliyyətinin hər bir məqamı öz xalqının mədəni intibahına, iqtisadi və siyasi yüksəlişinə xidmət edən uğurlarla zəngindir. O, Azərbaycanda müasir milli dövlətçiliyin, dünyanın mövcud reallıqları kontekstində intişar tapmış idarəetmə fəlsəfəsinin yaranmasında, mənəvi dəyərlərimizin qorunmasında, cəmiyyətin bütün potensialının milli azadlıq amalı uğrunda səfərbər etməsində, ictimai-siyasi sabitlik faktoruna istinad edən iqtisadi inkişaf strategiyasının müəyyənləşməsində, hakimiyyətlə və cəmiyyət arasında milli maraqlara xidmət edən etibarlı həmrəyliyin yaranmasında kifayət qədər böyük rol oynamışdır. Bu gün Dahi Öndər Heydər Əliyevin adı Azərbaycan xalqının milli şüurunda - güclü Azərbaycanın yaradıcısı kimi həkk olunub. Ulu Öndər Heydər Əliyev Azərbaycanda böyük bir ideologiyanın, milli dövlətçilik fəlsəfəsinin və milli mənlik şüurunun formalaşmasının əsasını qoymuşdur. Məhz Onun fədakar mübarizəsi sayəsində Azərbaycan xalqı öz ən ümdə arzularının reallaşmasına nail olmuşdur.

## CƏNUBİ QAFQAZIN ƏN BÖYÜK SİYASİ PARTİYASI OLAN YAP



## BÖYÜK UĞURLARA İMZA ATIB

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi qətiyyəti və iradəsi hesabına yaradılan və bu gün istər ölkə daxilində, istərsə də regionda lider partiya olan Yeni Azərbaycan Partiyası yarandığı zamandan həm ölkə daxilində cərəyan edən siyasi proseslərdə, həm də beynəlxalq əlaqələrdə böyük uğurlara imza atmışdır. Bu gün YAP, nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilmişdir. Heç şübhəsiz ki, bu nailiyyətlər Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz təməlin və bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasətin nəticəsində mümkün olmuşdur. Bu uğur, mövqe və əldə etdiyi nailiyyətlər Yeni Azərbaycan Partiyasının fəaliyyətinin məntiqi nəticəsidir ki, reallıq və əməl müstəqil, sürətlə inkişaf edən və modernləşən Azərbaycanın simasında təzahür olunur. Ötən illər ərzində, Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki alternativsiz qüvvə statusunu daha da möhkəmləndirib.

Yarandığı zamandan ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası 700 mindən artıq üzvü olan qurum kimi fəaliyyətdədir. "Dünənin, bu günün və sabahın" partiyası olan Yeni Azərbaycan Partiyası həm də gəncliyin partiyasıdır. Vurğulamaq vacibdir ki, gənclər siyasəti Ulu Öndər Heydər Əliyevin partiya quruculuğu dövründə diqqət mərkəzində olmuş və qısa bir zaman məsafəsində, gənclər YAP-ın ətrafında cəmləşmişdir.

Gənclərin YAP-ın sıralarında olması bu partiyanın ideyasını dəstəkləmək, Azərbaycan dövlətinin və dövlətçiliyinin keşiyində dayanmaq, bu yolda yorulmadan çalışmaq deməkdir. Bu baxımdan, Yeni Azərbaycan Partiyasının üzvü olmaq gəncləri qürurlandırır.

YAP bu gün ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edən minlərlə gənci öz ətrafında birləşdirən mükəmməl qurulmuş siyasi sistemdir. Gənclərin seçdiyi bu partiya ölkəmizin müstəqillik tarixində, ölkəmizdə hüquqi-dövlət quruculuğu sahəsində böyük işlərə imza atmışdır. Qeyd edək ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesində gənclərin rolunun müstəsnalığı nəzərə alınaraq, vahid gənclər siyasəti hazırlanıb həyata keçirildi. Belə ki, Ümummilli Lider Heydər Əliyev gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etdi. Gənclər, İdman və Turizm Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk Ümumrespublika Forumunun keçirilməsi, fevralın 2-də Azərbaycan Gənclər Gününün elan edilməsi, dövlət proqramlarının qəbulu, "Dövlət-gənclər siyasəti haqqında" Fərman və geniş Fəaliyyət Proqramının təsdiq edilməsi Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə, dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi.

## AZƏRBAYCAN GƏNCLİYİ CƏMİYYƏTİN İNKİŞAFINDA CİDDİ ROLU OLAN FƏAL SOSİAL TƏBƏQƏDİR

Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini qərarları ilə təsdiq edir. YAP sıralarına daxil olmaqla, gənclər həyatlarında ən düzgün qərarlarından birini qəbul edirlər. Bu gün, demək olar ki, YAP-da Azərbaycanın ən intellektual və yüksək səviyyəli gəncləri toplaşıb. Onların fəaliyyəti və özlərini təsdiq etmələri üçün bütün şərait yaradılıb. Gənclərin partiya sıralarına axınının sürətlənməsində Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər-siyasəti sahələrində atılan məqsədyönlü addımlar xüsusi əhəmiyyət kəsb edir. Ölkə başçısı tərəfindən həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını və ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində, bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir. Azərbaycan Prezidenti İlham Əliyevin siyasəti nəticəsində, Azərbaycan gəncliyi artıq cəmiyyətin inkişafında ciddi rolu olan fəal sosial təbəqəyə çevrilib. Azərbaycanda dövlət səviyyəsində gənclərlə bağlı bir sıra dövlət proqramları və layihələr həyata keçirilir. Həyata keçirdiyi layihələr çərçivəsində gənclər özlərini təsdiq edirlər və daha da inkişaf edirlər. Gənclər öz gələcəklərini təmin edir və dövlətimizə bu partiyanın xətti ilə xidmət etməkdə israrlıdırlar. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər), "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" (2007-2012-ci illər) gənclər siyasətinin daha da təkmilləşdirilməsini təmin edib, gənclərin yaradıcılıq potensialının aşkara çıxarılmasına, yaradıcılıq potensialının səmərəli idarə edilməsinə, xüsusi istedadlı gənclərin seçilməsinə, onlarla müvafiq tədbirlərin həyata keçirilməsinə və gənclərin sosial problemlərinin həllinə böyük zəmin yaradıb.

Ölkə Prezidenti İlham Əliyevin yürütdüyü daxili və xarici siyasi xəttin dəstəklənməsi, azərbaycançılıq ideologiyasının gənclər arasında təbliği və ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması kimi vacib əhəmiyyət kəsb edən tədbirlər həyata keçirilir. Gənclərə olan diqqət və gənclər siyasətinin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etməkdə növbəti addım oldu. Gənclərə ayrılan bu diqqətin və

# Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi layihələr gənclərin fəallığını daha da artırır













Ölkəmizin ən aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası daim maraqlı layihələrlə çıxış edir. Bu da, cəmiyyətimiz tərəfindən müsbət qarşılanır. Çünki bu layihələr, bilavasitə cəmiyyətdən gələn sosial sifarişlərdir. Eyni zamanda, əhalinin müxtəlif təbəqələrinin partiyanın bu fəaliyyətinə dəstək verməsi onun gücünü artıran amillərdən biridir. YAP-ın müxtəlif sahələri özündə ehtiva edən müxtəlif səpkili layihələrində cəmiyyətin bütün təbəqələri əhatə olunub. Ölkəmizin həyatında mühüm və əlamətdar günlərdə, xüsusi bayramlarda YAP tərəfindən həmişə diqqət və qayğıya ehtiyacı olan ailələrə, insanlara yardımlar edilir və köməkliklər göstərilir.

Yeni Azərbaycan Partiyasının xətti ilə keçirilən müxtəlif səpkili layihələrdə gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün yay və qış məktəblərinin təşkil olunması, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə bağlı Azərbaycan Ordusunun əsgərləri ilə görüşlərin keçirilməsi, elmi konfransların, seminar və treninqlərin keçirilməsi gənclərin fəallığında müstəsna rola malikdir. Bütün bu fəaliyyət və çoxşaxəli layihələrin gerçəkləşməsi Yeni Azərbaycan Partiyasının sıralarında gənclərin daha sıx birləşmələrinə inam hissini gücləndirir. Partiyanın həyata keçirdiyi layihələr bu dəstəyi daha da gücləndirir. Ölkəmizin həyatında mühüm və əlamətdar günlərdə, xüsusi bayramlarda YAP tərəfindən həmişə diqqət və qayğıya ehtiyacı olan ailələrə, insanlara yardımlar edilir, köməkliklər göstərilir. Cəmiyyət üzvləri də Yeni Azərbaycan Partiyası tərəfindən atılan bu addımları həmişə yüksək qiymətləndirir, bu cür aksiyalarda böyük fəallıq nümayiş etdirirlər. Bütün bunlardan əlavə ölkə gəncliyi, həmçinin, onlara göstərilən diqqət və qayğı da

qayğının nəticəsidir ki, Azərbaycan gəncləri bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Eyni zamanda, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gənclər üçün mühüm istiqamətlər mövcuddur.

## UĞURLA DAVAM ETDİRİLƏN "YAY MƏKTƏBLƏRİ" LAYİHƏSİ ƏNƏNƏYƏ ÇEVRİLİB

YAP-ın fəaliyyətində əsas yerlərdən birini tutur. Təsadüfi deyil ki, məhz YAP tərəfindən bir neçə ildir böyük uğurla davam etdirilən və ölkəmizin bütün bölgələrindən olan gəncləri əhatə edən "Yay məktəbləri" layihəsi artıq ənənəyə çevrilib. Hər il təşkil olunan layihə bu mövsüm də baş tutub. Belə ki, 2007-ci ildən həyata keçirilən "Yay məktəbləri" çərçivəsində bu il də gənclər üçün Lerik rayonundakı "Relax" İstirahət Mərkəzində və Oğuz rayonundakı "Afra" hotelində hər qrupda 70 nəfər olmaq üzrə 5 günlük "Yay məktəbləri" təşkil olunub. Layihənin məqsədi gənclərin həm asudə vaxtlarını yaxşı keçirmələri, bir-birilə təmas, münasibət qurmaları, həm də, onlar üçün intellektual və əyləncəli yarışların, idman oyunlarının təşkili olub. Yeni Azərbaycan Partiyasının təşkil "Yay məktəbləri" layihəsi, eyni zamanda, gənclərə Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, milli dövlətçiliyimizin tarixi, onun möhkəmləndirilməsi, həmçinin, ölkədə reallaşdırılan siyasi-iqtisadi kurs haqqında biliklərin əldə olunması istiqamətində əlverişli şans verir.

Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasın Sədri Cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində, Azərbaycan hər bir sahədə böyük inkişaf yolu qət edib. Bütün sahələrdə görülən işlər və qazanılan uğurlar onu göstərir ki, Azərbaycan xalqı düzgün seçim edib. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, Azərbaycanın dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Bu gün ümumxalq partiyasına çevrilən YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edərək, xalqımızın inam gətirdiyi lider partiyadır. İnkişaf və tərəqqi yolunu tutaraq, bütün fəaliyyət prinsiplərini dövlətə və xalqa xidmət üzərində quran YAP bu gün də həmin ənənəni davam etdirməkdədir.

Azərbaycanın yaxın keçmişini, bugününü və gələcəyini özündə ifadə edən YAP bugünkü Azərbaycan gəncliyinin həyat mövqeyini müəyyənləşdirməkdə onlara ən düzgün yol göstərir. Gənclər də, öz növbəsində, YAP-ın tarixi ideyaları bugünü və gələcəyi ilə bağlı kifayət qədər geniş məlumata və aydın təfəkkürə malikdirlər. Azərbaycanın qurulmasında və inkişafında mühüm xidmətləri olan YAP-ın gələcək uğurlarını da tarixə həkk edəcəyinə şübhə qalmır.

***Zümrüd BAYRAMOVA***

# Dövlət başçısının Sərəncamı ilə Azərbaycanda nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı ayrılıb

*İlham Əliyev: "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır"*

***Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycanın inkişaf dinamikası milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış və rəqabət qabiliyyətini yüksəltmişdir. Ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində dövlətimiz tərəfindən ciddi addımlar atılır, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir.***



Elə Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə imzaladığı "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında" 22 iyul 2019-cu il tarixli Sərəncamı dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının növbəti bir nümunəsidir. Sərəncama əsasən, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılıb. Qeyd edək ki, dövlətimiz tərəfindən qəzetlərə ayrılan diqqət və qayğı sistemli və davamlı xarakter daşıyır. "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında" 16 iyul 2018-ci il tarixli Sərəncamı da dövlətimiz tərəfindən mətbuata ayrılan diqqətin və göstərilən qayğının bir nümunəsi idi. Məlum Sərəncamla Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılmışdı.

Təbii ki, Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Ulu Öndərin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. Ulu Öndər Heydər Əliyev ölkəmiz müharibə şəraitində yaşasa da, əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi-iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində "Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir" deyərək, söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulmasının Azərbaycanda çox vacib olan məsələlər olduğunu qeyd edib: "Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir".

Dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə və jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə, təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb edir.

Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan maliyyə vəsaitlərinin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

Göründüyü kimi, Azərbaycan dövləti azad söz, azad mətbuat problemlərini, tam mənada, həll etməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə zəruri addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və həssaslıqla yanaşılır. Bütün bunlar Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist peşəsinə və əməyinə verdiyi yüksək qiymətin göstəriciləridir.

***Zümrüd BAYRAMOVA***

## Dövlətin mediaya diqqət və qayğısı davamlıdır

***Prezident İlham Əliyevin mətbuatın inkişafının stimullaşdırılması ilə bağlı növbəti birdəfəlik maliyyə yardımının ayrılmasına dair Sərəncamı, bir daha sübut edir ki, Azərbaycan dövləti medianın tərəqqisini daim diqqət mərkəzində saxlayır. Bununla bağlı qəzet baş redaktorlarının fikirlərini də öyrəndik.***

**"Həftə İçi" qəzetinin baş redaktoru** Sevinc Seyidova:



- Bildiyimiz kimi, Milli Mətbuat Günü ilə bağlı Prezident İlham Əliyev tərəfindən qəzetlərin inkişafının stimullaşdırılması ilə bağlı növbəti birdəfəlik maliyyə yardımının ayrılmasına dair Sərəncam imzalandı. Artıq ənənə halını alan bu cür sərəncamlar çap mediasının və qəzetlərin maddi durumunun yaxşılaşdırılması məsələsində hər zaman mühüm rol oynayıb. Xüsusilə də, bir neçə il əvvəl, devalvasiya ilə bağlı çap xərclərinin də artması qəzetlərin maddi durumuna olduqca mənfi təsir göstərmişdi. Məhz belə bir zamanda, dövlət başçısı tərəfindən Milli Mətbuat Günü ərəfəsində çap mediasına dövlət büdcəsi hesabına əlavə yardımların edilməsi ilə bağlı sərəncamları qəzetlərin üzləşdiyi bu problemlərin həllinə müsbət təsir göstərdi. Biz də çap mediasının ayaqda durması, qəzetlərin maddi durumlarının daha da yaxşılaşdırılması ilə bağlı dövlət başçısının məlum sərəncamlarını alqışlayırıq. Prezident İlham Əliyev tərəfindən atılan bu addımlar dövlətin mətbuata yüksək diqqət və qayğısının bariz nümunəsidir.

**"Bakı Xəbər" qəzetinin baş redaktoru** Aydın Quliyev:



- Azərbaycanda mediaya dövlətin dəstəyi, artıq bir işlək mexanizmə çevrilib. Bu mexanizm çərçivəsində hər il KİV-lərin inkişafına müəyyən maliyyə vəsaiti ayrılır, həmin o vəsait də KİVDF-nin həyata keçirdiyi qəzetlər üçün layihələr əsasında, jurnalistlər üçün yazı müsabiqələri əsasında jurnalistlərə, media orqanlarına və qəzetlərə çatdırılır. Budəfəki Fərmana da həmin kontekstdən yanaşıram. Yəni KİV-lərə dövlətin dəstək mexanizminin fasiləsiz işlədiyini göstərən bir hadisədir. Aydın məsələdir ki, KİV-lərin inkişafına ayrılan vəsait bütün hallarda qəzetlərin inkişafına kömək edir, jurnalistlərin, qəzet əməkdaşlarının maddi rifahının yaxşılaşmasında öz rolunu və təsirini göstərir. Bütün hallarda, bu səmərəli bir mexanizmdir, dövlətin əhəmiyyətli dəstəyidir, dünyanın bütün ölkələrində media orqanlarının kənardan maliyyə dəstəyinə həmişə ehtiyacı var və bu ehtiyacın ödənməsi üçün dünyanın müxtəlif ölkələrində müxtəlif addımlar və mexanizmlər həyata keçirilir. Düşünürəm ki, Azərbaycanda həyata keçirilən dövlətin adından bu dəstək mexanizmi özünün şəffaflığı, sistemliliyi və fasiləsizliyi ilə seçilir. Dövlətin mediaya maliyyə dəstəyi önəmlidir, əgər dövlət tərəfindən bu dəstək olmasa, onda ölkəmizdə media qurumlarının hərəsi mənşəyi bilinməyən müxtəlif qurumların, şəxslərin, qruplaşmaların təsiri altına düşər ki, bu da ölkə üçün çox arzu olunmayan nəticələrə gətirib çıxara bilər. Ona görə də, Cənab Prezidentin dövlət adından etdiyi bu yardımı yüksək qiymətləndirirəm.

***GÜLYANƏ***



# Azərbaycanın turizm sektoru inkişafdadır

***Ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquqi-normativ aktların qəbul edilməsi və müasir turizm infrastrukturunun yaradılması sahəsində məqsədyönlü işlər görülməkdədir. Son illər həyata keçirilən sosial-iqtisadi yönümlü layihələr, dövlət proqramları, siyasi sabitlik, qısa zamanda, dövlətin simasında dəyişikliklərin yaranmasına gətirib çıxardı. Ölkədə yüzlərlə turizm şirkətinin fəaliyyəti, turizm marşrutlarının yaradılması, beşulduzlu otellərin istifadəyə verilməsi, eləcə də, peşəkar kadrların hazırlanmasına diqqətin artırılması və s. Azərbaycanın turizm ölkəsi tək tanınmasında əsas amillər sırasındadır.***

Respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə həyata keçirilən tədbirlər sırasında turizm imkanlarını əks etdirən reklam-çap məhsullarının hazırlanması da qeyd olunmalıdır. “Turistlər üçün məlumat” kitabçası, “Azərbaycanın otelləri”, “Azərbaycanın



tarixi və arxitektura abidələri”, “Bakının teatr və muzeyləri” bukletləri, “Azərbaycan” və “Bakı” fotoalbomları, “İpək Yolu”, “Xalçaçılıq” kitabçaları, Azərbaycanın, Şuşanın və Qarabağın turist xəritələri, “Azərbaycana Xoş Gəlmisiniz” CD diski və DVD formatda 10-20 dəqiqəlik filmlər və s. ölkəmizin turizm imkanlarının təbliğində əsas yerlərdən birini tutur.

Mövcud olan irəliləyiş və nailiyyətlər dünyanın hər bir qitəsin-



dən olan turistləri Azərbaycana gətirir. Təbiətinin gözəlliyi ilə diqqəti cəlb edən regionlarımız, paytaxtımızın əsrarəngiz gözəlliyi, Dövlət Bayrağı Meydanı, “Bakı Kristal Zalı”, son 2 ildə ölkəmizdə 5 beynəlxalq brendli beşulduzlu hotelin istifadəyə verilməsi və digər müasir tikililər saysız insanları bu məkana cəlb edir. Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər, bu gün ölkəmizi dünyada tanıda bilib.

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaratdı. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. “Şahdağ” Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Kompleksin ərazisi ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Bu turizm obyekti dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdədir. Turizm kompleksinin əsas hissəsi isə, dəniz səviyyəsindən 1440-1640 metr yüksəklikdəki yaylaqda yerləşir. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan

> “Şahdağ” Kurortu Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin yay mövsümündə fəal istirahət üçün dağ kurortları reytinqində ilk beşliyə daxil edilib



“Şahdağ” Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır.

Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan “Şahdağ” Qış-Yay Turizm Kompleksinə daxil



olan “Qaya” və “Zirvə” mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açdı. “Zirvə” otelində - 40 nömrə, personal üçün 3 otaq, restoranlar, bar, kafe, pab, bilyard zalı, mağazalar, konfrans zalı, xizək avadanlıqlarının icarəsi, xizək məktəbi, tibb məntəqəsi, avtomobil dayanacağı və sair obyektlər mövcuddur. “Qaya” otelində isə 62 nəfər turistin yaşayışı üçün nəzərdə tutulan 26 nömrə, fitnes klubu, restoran, bar, kafe və sair obyektlər mövcuddur. Kompleksdə xizək enişlərinə qalxmaq üçün 4 ədəd asma kanat yolu və xüsusi olaraq, kiçik yaşlı xizək sürənlər üçün xalı-yolu mövcuddur. Belə imkanlara malik olan məkan Rusiyanın “TurStat” Analitik Agentliyi tərəfindən aparılmış araşdırmaların nəticələrinə görə, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin yay mövsümündə fəal istirahət üçün dağ kurortları reytinqində kurortların ilk beşliyinə Azərbaycandakı “Şahdağ” Kurortu da daxil edilib.

İlk onluğa “Şahdağ” ilə yanaşı, “Krasnaya Polyana” (Soçi), “Çimbulak” (Almatı, Qazaxıstan), Krım dağları, “Dombay” (Qaraçay-Çərkəz Respublikası), “Katun” (Dağlıq Altay), “Prielbrusye” (Kabarda-Balkar), “Şereqeş” (Kemerovo vilayəti), “Xibin” (Murmansk vilayəti) və “Karakol” (Qırğızıstan) da daxildir.

Dağ kurortlarının reytinqi onların populyarlıq, infrastrukturun inkişaf dərəcəsi və nəqliyyat üçün münasibliyi əlamətlərinin təhlili əsasında təhlil edilib.

Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə “Şahdağ” Milli Parkının ərazisində yerləşən “Şahdağ” Qış-Yay Turizm Kompleksi müasir tələblərə cavab verir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, “Şahdağ” Qış-Yay Turizm Kompleksinə çəkilən avtomobil yolu genişləndirilmiş, yeni körpülər salınmış, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmiş və digər müvafiq işlər görülmüşdür.

Görülən işlər, bizə deməyə əsas verir ki, Azərbaycan bənzərsiz turizm imkanları ilə dünyanın diqqət mərkəzində hər zaman olacaqdır. Turistlərin sayında ilbəil artım müşahidə olunur ki, 2020-ci ilədək ölkəmizə gələn turistlərin sayının ildə 5 milyon nəfərə çatdırılmasının, qarşıya məqsəd olaraq qoyulması da, elə bu gerçəkliklərdən qaynaqlanır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Ölkəmizdə narkomaniyaya qarşı mübarizə gücləndirilir




***Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Onun yaratdığı problemlər cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsinə, genefondun pisləşməsinə və bir çox mənfi hallara gətirib çıxarır. Eyni zamanda, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir.***

Bu baxımdan, dünya dövlətləri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını daha da təkmilləşdirir, habelə, beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiqi sahəsində səylərini artırırlar. Ölkəmizdə də narkomaniyaya qarşı mübarizə sahəsində dövlət tərəfindən atılan addımlar öz müsbət nəticələrini verməkdədir. Bu sahədə fəaliyyət, ardıcıl olaraq, davam etdirilir və daha da genişləndirilir. Belə ki, "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 26 avqust tarixli Fərmanı narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdə mühüm bir Sənəd oldu. Daha sonra, davamlı olaraq, bu sahədə tədbirlər icra olundu. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli Fərmanı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı", 2007-ci il 28 iyun tarixli Sərəncamla "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramı (2007-2012-ci illər üçün)", 2013-cü il 24 iyun tarixli Sərəncam ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmiş və uğurla həyata keçirilmişdir. Dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edilmişdir. Respublikada narkotiklərin qanunsuz dövriyyəsi, narkomanlıqla mübarizə sahəsində bir sıra təşkilati-hüquqi, institusional, əməli-praktiki tədbirlər həyata keçirilmiş və narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak daha intensiv xarakter almışdır.




Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi görülən işlərin davamıdır.

Dövlət Proqramının məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınmasıdır. Eyni zamanda, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi də nəzərdə tutulub.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onlardan sui-istifadə ilə əlaqədar mübarizə tədbirlərini daha da gücləndirmək məqsədilə aidiyyəti qurumların əməkdaşlığının möhkəmləndirilməsi və qarşılıqlı fəaliyyətinin təmin edilməsi nəzərdə tutulub. Tədbirlər planına uyğun olaraq, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti Dövlət Sərhəd Xidməti icraçı orqanlar olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onlardan sui-istifadə ilə əlaqədar mübarizə tədbirlərini daha da gücləndirmək məqsədilə aidiyyəti qurumların əməkdaşlığının möhkəmləndirilməsi və qarşılıqlı fəaliyyətini təmin edəcək. Narkoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması, narkoloq və tibbi psixoloqların, narkoloji müalicə müəssisələrinin sayının artırılması, reabilitasiya mərkəzlərinin yaradılması isə səhiyyə Nazirliyinə həvalə olunub. Səhiyyə Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası narkotikdən sui-istifadə edənlərin aşkarlanması metodlarının təkmilləşdirilməsi ilə bağlı tədqiqatlar aparacaq. Beynəlxalq, eləcə də, profilaktika, müalicə, reabilitasiya, maarifləndirmə və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bütün bu və ya digər tədbirlərin icrası narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində mühüm addımdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Ermənistan ordusunda yezidi kürdlərə qarşı irqi diskriminasiya

*Yaxud Broyan ayıbı*

***Ermənistan ictimaiyyətində yezidi kürdlərə qarşı irqi diskriminasiyanın mövcud olması kimsəyə sirr deyil. Bütün sahələrdə özlərinə qarşı ayrı-seçkilik edildiyini yezidi kürdlər də gizli saxlamırlar. Onlar, sadəcə, Serj Sarkisyan zamanında deyil, hazırda Nikol Paşinyan iqtidarında da eyni ölçüdə çətin vəziyyətdə olduqlarını deyirlər. Belə ki, ötən il onlar bir bəyanat verərək, özlərinə qarşı tətbiq edilən haqsızlıqları da dilə gətirmişdilər. Lakin dəyişən bir şey olmadığı kimi, durum daha da şiddətlənir.***



### Ermənistan mediası: "20 yaşlı bu gənc təxminən bir ildir ki, xəstəxanada yatır, ağıl və ruhi xəstəlikləri mərkəzlərində hələ də müalicə almaqdadır"

Artıq bir ildir ki, Ermənistan ictimaiyyəti yezidi əsgər Yurik Broyanın ətrafında inkişaf edən hadisələrlə çalxalanmaqdadır. "Səs"ə daxil olan məlumata görə, erməni mediası yazır ki, yezidi kürdü Broyan əsgərliyə getdikdən, təxminən, 10 gün sonra Bad ləqəbəli komandir Armen Arutunyan tərəfindən vəhşicəsinə döyülmüş və psixiki pozğunluğa məruz qalmışdır. "20 yaşlı bu gənc, təxminən, bir ildir ki, xəstəxanada yatır, ağıl və ruhi xəstəlikləri mərkəzlərində hələ də müalicə almaqdadır" deyə yazan erməni mediası qeyd edir ki, Broyanın Armavir vilayətinin Caray kəndində yaşayan anası Mariya Broyanın sözlərinə görə, Yurik hərbi xidmətə qədər, hətta məktəbə belə getməyib və savadsızdır: "Ta uşaqlığından tez-tez özünə qapanan, özünə xəsarət yetirən övladımın hansı yolla hərbi xidmətə aparılması bu gün də məni düşündürür".

### Onun bu addımlarını "fürsətcillik" sanan komandirlər, xüsusilə, Armen Arutunyan Yuriki vəhşicəsinə döyüb

Yezidi kürd olan xəstə gəncin hansı yolla əsgərliyə aparılması bu gün də ciddi mövzuya çevrilib. Belə ki, işğal altındakı Qarabağın Ağdərə bölgəsində hərbi xidmətə aparılmış Broyan xəstəliyi səbəbindən, heç vaxt müvafiq işlərə qatılmayıb. Onun bu addımlarını "fürsətcillik" sanan komandirlər, xüsusilə, Armen Arutunyan Yuriki vəhşicəsinə döyüb. Çox pis vəziyyətdə qalan yezidi kürd gənci bir neçə gün bağlı qapılar arxasında saxlanılaraq, gündə bir neçə dəfə döyülürmüş. Nəticədə, o, onsuz da, zəif olan ruhi sağlamlığını daha da itirib. Lakin onun müalicəsi bir ildən artıqdır ki, davam etsə də, əziyyəti bitib-tükənmir.



Bu arada, onun vəkili Ayrapi Sarkisyan iyulun 18-də keçirdiyi mətbuat konfransında müvəkkilinin hələ də hərbi dairələr tərəfindən nəzarətdə saxlanıldığını, bu minvalla ruhi-psixiki sıxıntı yaşadığını deyib. Məsələnin maraqlı tərəfi isə, budur ki, Ermənistanın müdafiə nazirliyinin həkim heyəti Broyanın "sağlam" olduğu barədə rəy verib. Hətta müvafiq dərmanlar belə yezidi gəncə verilmir. Həkimlər Broyanın anasını da ittiham edərək, onu xəstəxanada deyil, evdə müalicə etdirdiyini bildirirlər. Lakin Broyanın vəkili bu iddiaları yalanlayır və onun Kanaz hərbi hospitalında saxlanıldığını deyir. "Ümid edirəm ki, müvəkkilim yenidən hərbi xidmətə aparılmayacaq" deyə Ayrapi Sarkisyan bildirib.

Beləliklə, sadəcə, bu məsələnin təhlilini apararkən, belə nəticəyə gəlməyə zəmin yaranır ki, Ermənistan ordusunda digər millətlərə və dinlərə aid ölkə vətəndaşlarına qarşı ciddi ayrı-seçkilik və diskriminasiya mövcuddur. Broyan hadisəsi isə, həmin hadisələrdən yalnız biridir. Dünyada monoetnik ölkələrdən sayılan Ermənistanda baş verən bənzər olayların isə, sayı-hesabı tükənmir və artıq bir sıra beynəlxalq təşkilatlar bu məsələni diqqətlərində saxlayırlar.

*Rövşən NURƏDDİNOĞLU*

TƏRS BAXIŞ




# Müxalifətin bazarı və azarı

## *Və yaxud hər cinayətin altından AXCP-Müsavat çıxır*

***Neçə illərdir ki, "siyasi mühacir", "mühacir biznesi" adları altında müxalifət düşərgəsində tozanaq səngimək bilmir. Və 20 ildən çoxdur ki, xüsusilə, AXCP və Müsavat partiyalarının dələduz rəhbərlikləri bu və ya digər şəkildə onlara müraciət edən şəxslərə saxta arayışlar təqdim edərək, guya Azərbaycanda siyasi fəaliyyətlərinə görə təqib olunduqları haqda yalanına imza atır, bunun müqabilində "siyasi mühacir" bizneslərini, necə deyərlər, inkişaf etdirirlər.***

Bununla da, Avropada baş verən hadisələrin törədiciləri ya Əli Kərimlinin, ya da Arif Hacılının "yastığı altından" çıxanlar olur. Əslində, dəfələrlə sübuta yetirilib ki, Avropaya bu kimi saxta adlar altında köçənlərin əksəriyyəti müxtəlif cinayət əməlləri törədən şəxslərdirlər ki, onlar köçdükləri ölkələrdə də bu fəaliyyətlərini davam etdirərək, buna bənzər cinayətlərini təkrarlayırlar.

### Əvvəlcə "siyasi məhbus" olurlar, sonra isə Avropada cinayətkara çevrilirlər

İstər Ə.Kərimli, istər A.Hacılı və yaxud da İsa Qəmbər kimilərin xaricə "ezam" etdikləri törətdikləri cinayətkarların verdikləri saxta mühacir sənədlərinin sahibləri də cinayətkar olacaq. Məhz buna görə də, bu gün Azərbaycanda müxtəlif cinayətlər törədən şəxslərin dərhal "siyasi məhbus" siyahılarına salınmaları kimi hallar daha ağır fəsadlara yol açır. Belə şəxslər azadlığa çıxdıqdan dərhal sonra, bu ad altında xarici ölkələrə köçür, sonradan cinayətkar əməllərin, hətta göründüyü kimi, qətl hadisələrinin, bilavasitə iştirakçılarına çevrilirlər. Görünən isə, budur ki, bu gün baş verən hər hansı hadisələrin hər birinin günahı "siyasi mühacir" adı ilə alver edən AXCP, Müsavat və s. siyasəti bazara çevirən partiya rəhbərlərindədir. Bir gün onlar da, baş verənlərə görə qanun qarşısında cavab verməli olacaqlar.

### 483 vətəndaşa Müsavat üzvü olmaqla bağlı saxta arayış verilib!

Müsavatın "siyasi mühacir" alverinin miqyasını ifşa edən "Yeni Müsavat" qəzetinin yazarı olmuş Elbəyi Həsənli öz "Facebook" statusunda qeyd edib ki, A.Hacılının rəhbərliyindəki komanda, son 6 ayda 483 vətəndaşa Müsavat üzvü olmaqla bağlı arayış verib: "Bəllidir ki, Azərbaycanda nə dövlət, nə də özəl idarələrə belə arayış gərək deyil. Bu arayışların yalnız mühacirət üçün gərəkli olduğu hər kəsə bəllidir. Çox istərdim ki, Müsavat partiyası "6 ayda 483 arayış"la bağlı rəsmi açıqlama versin".

E.Həsənli, bundan başqa, öz "Facebook" statusunda belə yazıb: "Mənə Müsavat partiyasına görə oturum versəydilər belə, burada qeyri-adi bir şey olmazdı. Ən azı, mən partiya sıralarına daxil olduqdan 9 il sonra Avropaya üz tutmuşam. İndikilər bəzən 9 saat ərzində partiya vəsiqəsi, arayış və İ.Qəmbərlə foto əldə edib, Avropaya yollanırlar. Təbii ki, müvafiq ödənişdən sonra".

### Sahib Alıyev: "Yazıqlar olsun saxta siyasi mühacir sənədi verənlərə də, onu alanlara da"

Müxalif düşərgədə baş verən bu rüsvayçı olaya münasibətini bildirən millət vəkili Sahib Alıyev deyib ki, Qərbdəki bəlli çevrələrin tapşırığıyla Azərbaycanda keçirilən genişmiqyaslı tədbirləri boykota səsləyən Müsavatın onların önündə müxalifət partiyası kimi tanınmaq istəməsində ancaq bir məqsədi var - qrant almaq: "Sən demə, bu, belə deyilmiş. Qərbdəkilərin Müsavatı müxalifət partiyası kimi tanımaları həm də ona başqa gəlir mənbələri verirmiş. Partiya "mühacir "biznesi"nə də girişibmiş. Yəni Avropada sığınacaq almaq istəyənlərə, bəlli bir məbləğ qarşılığında vəsiqə verilirmiş ki, o, "müsavatçıdır". Yazıqlar olsun saxta "siyasi mühacir" sənədi verənlərə də, onu alanlara da".

### Əli Orucov: "Başqalarını saxtakarlıqda ittiham edənlərin etdikləri saxtakarlıqların miqyasını görüncə və eşidincə, heyrətə gəlirsən"

AMİP siyasi şurasının üzvü Əli Orucov isə bildirib ki, bu cür saxtakarlıq halları cəmiyyətdə hər zaman qınağa tuş gəlib: "Başqalarını saxtakarlıqda ittiham edənlərin etdikləri saxtakarlıqların miqyasını görüncə və eşidincə, heyrətə gəlirsən. Belə hallar, həm əsl siyasi mübarizə aparan insanlara hörmətsizlik, həm də dövlətə qarşı təxribat və gözdən salmadır. Məncə, hüquq-mühafizə orqanları bu məsələnin izinə düşməlidirlər. Onlar bütün saxtakarlıq və "mühacir" "ixracının" izinə düşüb, bunu ifşa etməli, eyni zamanda, hüquqi ölçü götürməlidirlər. Sabah, doğrudan da, hansısa müxalifət fəali incidilsə, buna inanılmayacaq. Məncə, məsələ çox ciddi olduğundan, ciddi də tədbirlər görülməlidir".

İstər Müsavat, istərsə də AXCP kimi dələduzların pul qazanmaq üçün hər hansı çirkin oyunlara əl atmaqla, Azərbaycanın beynəlxalq imicinə ləkə gətirməyə cəhd etməyə çalışsalar da, bu dələduzların dəllallığı ancaq öz başlarına əngəl olmaqdan başqa, bir şey deyil. Bu cür müxalifətçiliyin sonu elə, belə də olmalıdır.

**RÖVŞƏN**

# SAXTA SƏNƏD ALVERİNİN QURBANLARI İNTİHAR EDİR, YAXUD HARINLAMIŞ MÜXALİFƏTÇİLƏR KİMLƏRDİR?

***AXCP və Müsavatın saxta sənədləri əsasında Avropa ölkələrindəki düşərgələrdə yerləşdirilmiş azərbaycanlılar barəsində narahatedici xəbərlər gəlməkdədir. Məlumatlar var ki, adları çəkilən partiyaların saxta arayışları ilə Avropaya getmiş soydaşlarımız qeyri-insani rəftara və yaşam şəraitinə dözməyərək, intihar edirlər.***




Amma nədənsə saxta sənəd alverinin "bazarkomları" Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli, Oktay Gülalıyev, Leyla Yunus kimilər bu barədə ya susur, ya da günahı hakimiyyətin üzərinə atmağa çalışırlar.

Ortada olan faktlar göstərir ki, AXCP və Müsavatın Avropada yaşayan Qənimət Zahid, Məhəmməd Mirzəli, Fikrət Hüseynli və İnqilab Kərimovla sıx iş birliyi və bazarlığı var. Təsadüfi deyil ki, Fransada yaşayan cəbhəçi, "Kanal Turan"ın əməkdaşı Türkel Azərtürkün bir neçə gün əvvəl yayılmış səs yazısında oturum almağın azı 2500-3000 dollara başa gəldiyi deyilirdi. Məhz belə şıdırğı alverin nəticəsidir ki, adları çəkilən harınlamış müxalifətçilər gecə musiqi sədaları altında əylənir, bir-birinin başına avroşabaş yağdırır, arayışların saxtalığına görə Almaniya və Fransadakı kamplarda pis vəziyyətdə qalmış azərbaycanlılar isə intihara əl atırlar. Budur müxalifətin Avropada yaratdığı cinayətkar şəbəkənin əməlləri...

Bu yaxınlarda Avropadakı "söyüş batalyonunun" fəallarından olan Əli Oğuz (Hüseynəliyev) bildirib ki, burada qruplaşmış adamlar var: "Dəstək vermək əvəzinə, kim ki ağıllıdır, müstəqil düşünə bilir, bunların fırıldaqlarını görür, həmin adamları çıxdaş edirlər, ləkələyirlər, "agent" adlandırırlar... Mən 2016-cı ilin oktyabrında Almaniyaya qaçmışam və noyabrda AKM-çilərlə görüşmüşəm. Mənə Çağlar Qasımovu təqdim etdilər. Həmin adam kazinoda 1 saatın içində 2000 avro pul uduzdu. Bunlar bu pulu hardan alıblar bəs? Onlar sənəd alveri edirlər. Saxta qaçqınlıq sənədləri satırlar. Hətta mənim özümə də təklif etmişdilər. Mən Arif Hacılının müavininə də demişəm bu barədə. Həmin adamlar da olurlar bunların trolları. Kimin üstünə göndərirlərsə, hamısı gəlib hürürlər. Burada guya "Siyasi məhbuslara azadlıq" adı ilə aksiyalar təşkil edirlər. Öz qohumlarının, pul aldıqları şəxslərin adına mitinq təşkil edirlər ki, guya həmin adamlar mitinqlər keçirirlər... Səxavət Soltanlı iddia edir ki, 3 ildə 297 arayış verib. Onların hamısı buradadır. Burada "sənəd alveri"nin başında Fikrət ("Azadlıq" qəzetinin və "Kanal Turan"ın əməkdaşı Fikrət Hüseynlini nəzərdə tutur - red.) durur. Hər kəs Fikrətdən alır sənədləri. Ona görə Ukraynada həbs olunmuşdu. Ona görə Hollandiya oturum vermədi ona... Komandanın başında İnqilab Kərimov (Ə.Kərimlinin əmisi oğlu - red.) durur. Söyüş söyürlər... Q.Zahid o qədər yalan məlumat yazır ki, Məhəmməd Mirzəli kimi klounluq edib, saxta videolar paylaşmaq lazım deyil. Məhəmməd Mirzəli bütün nəslini-kökünü yığıb Fransaya...".

Şübhə yoxdur ki, mühacir biznesindən qazanılan pullar ancaq Avropadakı fırıldaqçılar tərəfindən mənimsənilmir. Vəsaitin əhəmiyyətli hissəsi Azərbaycana - saxta arayışlar satan Ə.Kərimliyə, A.Hacılıya və başqalarına göndərilir. Ona görə də illərdir heç bir yerdə işləməyən bu müxalifət "liderləri", keçmiş cəbhəçi Sahib Kərimlinin təbirincə desək, "lordlar kimi həyat sürürlər"...

***"Səs" Analitik Qrupu***

# Ətraf mühiti ermənilər zəhərləyir



***Ermənistanın Çknax çayında çox sayda ölü balıq aşkar edilib ki, səbəbləri hələ müəyyən edilməyib. SİAErmənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "Past" qəzeti yazır. Məlumatda qeyd olunur ki, Dzoraget çayının bir qolu olan Chnax çayında bu günlərdə çox sayda ölü balıq aşkar edilib. Bəzi məlumatlara görə, bu çayın yanında işləyən qızıl mədəninin tullantıları ilə əlaqədardır, amma brakonyerlərin çayda balıqları zəhərlədikləri barədə də fikirlər var.***

Nəşrin yazdığına görə, hadisə ilə əlaqədar son iki gündə hüquq-mühafizə orqanlarının əməkdaşları, xüsusən də Milli Təhlükəsizlik Xidməti vəziyyəti izləmək və hadisənin səbəblərini tapmaq üçün ciddi yoxlamalar keçirir. Bu günlərdə brakonyerlik hallarının qarşısını almaq üçün Çknax çayında intensiv növbətçilik qurulub. İctimailəşdirilmiş məlumatlara görə, həbs olunanlar da var. Yeri gəlmişkən, hadisəni Qida Təhlükəsizliyi Təftiş Orqanının İnformasiya və İctimaiyyətlə Əlaqələr Şöbəsinin müdiri Anuş Harutyunyan təsdiqləyib. O qeyd edib ki, Qida Təhlükəsizliyi Müfəttişliyinin müfəttişi müayinə üçün təqdim ediləcək çayda su nümunələri götürüb. Harutyunyan onu da qeyd edib ki, laboratoriya analizlərinin nəticələri həftənin sonunda məlum olacaq.

***İnam Hacıyev***

# Əli Kərimli - avantüraçı, satqın və milli xəyanətkar

*İctimaiyyət və sağlam düşüncəli insanlar anti-dövlətçilik çıxışlarına görə, onun həbs olunmasını tələb etməlidir!*

***Kifayət qədər faktlara əsaslanan amillərdən biri də budur ki, birillik AXC-Müsavat hakimiyyətinin bəzi təmsilçiləri, istər iqtidarda olduqları dövrdə, istərsə də müxalifətdə olduqları zaman yalnız antimilli, dağıdıcı mövqe tutaraq, Azərbaycan dövlətçiliyini və onun müstəqilliyini sarsıtmaq məqsədilə əməli fəaliyyət göstəriblər. Bu sıralamada isə, ilk yeri tutanlardan biri və birincisi Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimlidir. O da, sirr deyil ki, müxalifətçi partiya sədri adı altında maskalanan Ə.Kərimli və onun yandaşları, ümumiyyətlə, yaxın ətrafı qarşısında dayanan əsas məqsəd dövlətimizin strateji hədəflərinin sabotaj olunması, dövlətimizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirməsidir. Bu baxımdan, biz çoxsaylı sübutlar gətirməklə, belə bir nəticəyə gələ bilərik ki, Ə.Kərimlinin fəaliyyəti və irəli sürdüyü iddialar ermənilərin Azərbaycana qarşı həyata keçirdiyi informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür. Artıq bu, bir aksiomaya çevrilib.***



### Azərbaycanın cəbhə xəttində və danışıqlar masası arxasında mühüm üstünlük əldə etdiyi məqamda Əli Kərimli daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürür

Digər tərəfdən, o da bəllidir ki, uzun müddət ərzində, AXCP adlı pərdələnmiş təşkilat başda olmaqla, "Azadlıq" qəzeti, eləcə də, sosial şəbəkələrdə fəaliyyət göstərən məlum qrup Ə.Kərimlinin sifarişlərinə uyğun olaraq, ölkə və xalq üçün ən taleyüklü məqamlarda belə düşmənin informasiya təxribatlarına bəhanə, stimul və dəstək verir. Onlar qınanıldıqda isə, Kərimlinin ən çox sevdiyi "silah" - söyüş və təhqir kampaniyasına start verilir. Sadə bir fakta əsaslanaq, məlum aprel olayının ilk dörd günündə, cəbhədə baş verən hərbi əməliyyatlardan sonra ictimai rəy, məhz bu faktorun şahidinə çevrildi. Daha dəqiq desək, heç də təsadüfi deyil ki, Azərbaycanın həm cəbhə xəttində, həm də danışıqlar masası arxasında mühüm üstünlük əldə etdiyi indiki məqamda Ə.Kərimli və onun yaxın ətrafı daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürməyə başlayıb. Əsas məqsəd ictimai rəyi yanlış istiqamətə yönəltmək, xalqın vətənpərvərlik ruhunu, xalqla hakimiyyət arasında birliyi sarsıtmaq və bununla da, dövlətimizin əldə etdiyi mühüm nailiyyətin əhəmiyyətini heçə endirməkdir.

### Beynəlxalq ictimaiyyət münaqişənin yenidən alovlanması səbəblərinə obyektiv yanaşıb, ölkəmizin davamlı xarakter daşıyan erməni təxribatlarına cavab hüququnu tanıyıb və dəstək verib

Halbuki Azərbaycanın şanlı və rəşadətli silahlı qüvvələri işğalçı-təcavüzkar Ermənistan ordusuna sarsıdıcı zərbə vurub, mühüm strateji yüksəkliklərə nəzarəti əlrə keçirib və Ali Baş Komandan tərəfindən qarşıya qoyulmuş vəzifələr uğurla yerinə yetirilib. Məğlub və qorxaq düşmən həm canlı qüvvədə, həm də texnikada böyük itkiyə məruz qalıb və xilas yolu axtarmağa can atır. Ancaq işğalçılar diplomatik cəhətdən də sarsıdıcı məğlubiyyətlərə məruz qalmaqdadır. Xüsusilə, beynəlxalq ictimaiyyət məlum olaylardan sonra münaqişənin yenidən alovlanması səbəblərinə obyektiv yanaşıb, ölkəmizin davamlı xarakter daşıyan erməni təxribatlarına cavab hüququnu tanıyıb və dəstək verib. ABŞ-ın yüksək siyasi dairələri və diplomatları, Rusiya dairələri, BMT, AŞPA, ATƏT və s. kimi nüfuzu təşkilatlar Ermənistanı işğal altında saxladığı ərazilərdən çıxmağa səslədi. Məhz bununla da, Azərbaycan uzun illərdən bəri formalaşmış "məğlub tərəf" stereotipini sındırdı və isbatladı ki, istənilən anda torpaqları geri almaq iqtidarına malikdir.

### Bu kimi əhəmiyyətli, olduqca vacib faktorları təhlil edib, reallığı doğru şəkildə qiymətləndirmələri yerinə...

Başqa tərəfdən, Azərbaycan beynəlxalq ictimaiyyətin israrlı müraciətlərini nəzərə alaraq, hərbi əməliyyatları dayandırıb və sülh prosesinə sadiqliyini növbəti dəfə nümayiş etdirib ki, bu amil də sonrakı proseslərdə öz üstünlüyünü qoruyub-saxlayacaq, danışıqlara başlanarsa, ölkəmiz sözügedən məqamı beynəlxalq aləmin diqqətinə çatdıracaqdır. Bu addım beynəlxalq ictimaiyyət tərəfindən olduqca yüksək qiymətləndirilib. Ancaq Azərbaycanın sülh tərəfdarı qismində siyasət yürütməsinə rəğmən, Ermənistan əldə olunmuş son atəşkəs rejiminə riayət etmir. Təbii ki, belə olan halda, zaman və nəticə, məhz bizim dövlətimizin xeyrinə işləmiş olur.

Bütün bu kimi əhəmiyyətli, olduqca vacib faktorları təhlil edib, reallığı doğru şəkildə qiymətləndirmələri yerinə, AXCP sədri Ə.Kərimlinin tamamilə əks-mövqedə dayanıb, erməni dəyirmanına su tökməsi isə, sadəcə, millətə, xalqa və dövlətə xəyanət adlandırıla bilər.

Hazırda Azərbaycanın əldə etdiyi üstün mövqeyə dəstək vermək əvəzinə, Ə.Kərimli və onun rəhbərlik etdiyi AXCP, onun sosial mediadakı söyüş qrupları tam əks-mövqe tutaraq, erməni dəyirmanına su tökməklə məşğuldurlar. Bununla, qaragüruhçu dəstə xalqın Azərbaycan Prezidentinin yürütdüyü siyasətə etimadının və dəstəyinin daha da yüksəldiyi, cəmiyyətlə hakimiyyət arasında birliyin daha da sıxlaşdığı, Milli Ordumuzun zəfərinin xalqda yüksək əhval-ruhiyyə və Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunacağına böyük inam yaratdığı bir vaxtda, Ə.Kərimli əsl düşmən xislətini bir daha açıq şəkildə ortaya qoymuş olur. Əsl düşmən kimi uğurumuzu uğursuzluq, qələbəmizi məğlubiyyət kimi qələmə verməklə və hakimiyyəti ittiham hədəfinə çevirməyə cəhd göstərməklə!

### Əli Kərimli minlərlə Azərbaycan gəncinin qanına susamış əsl düşmən, Vətən xaini və canidir!

Ə.Kərimli hərbi əməliyyatların davam etdirilməsi, müharibənin daha da alovlanması ilə bağlı populist çağırışlar edir, daxildə vəziyyəti gərginləşdirməklə, məntiqi yekuna yaxınlaşan münaqişənin ədalətli şəkildə və sülh yolu ilə həllinə zərbə vurmağa çalışır. Belə bir mühüm dönüş nöqtəsində, müharibə tələb edən Ə.Kərimli minlərlə Azərbaycan gəncinin qanına susamış əsl düşmən, Vətən xaini və canidir. Artıq Ə.Kərimli və onun tərəfdarlarının Azərbaycanın milli maraqlarına zidd və ermənipərəst fəaliyyətinə son qoymağın vaxtı çoxdan çatıb. Cəzasızlıq isə, onun dövlətçilik maraqlarımız qarşısında daha da quduzlaşmasına səbəb olur.

Əlbəttə ki, belə bir ərəfədə, öz rəşadətli ordusunun, əsgərlərinin, eləcə də, Ali Baş Komandanının ətrafında sıx birləşdiyini əməli nəticələrlə sübuta yetirən müxtəlif sosial təbəqələrin nümayəndələri - ziyalılar və gənclər ayağa qalxmalı, satqın və xəyanətkar Ə.Kərimliyə öz yerini göstərməlidirlər! Azərbaycan dövləti davamlı şəkildə milli maraqlara zərbə vurmaqla, ölkənin siyasi həyatında özlərinə yer etmiş Ə.Kərimli kimi şəxsi ambisiyasını güdən populistlərə, avantüraçılara, antimilli ünsürlərə bundan sonra da meydan verməməli və onların barəsində sərt ölçü götürməlidir. O, həbs olunmalı, layiqli cəzasını almalı, ən yaxşı halda isə, ölkədən hüdudlarından çıxarılmalıdır. Belələrinə Azərbaycanda yer yoxdur!

**Rövşən RƏSULOV**

# "Nar" şəbəkəsi gücləndirilmiş iş rejiminə keçirilib

***Ölkənin ən güclü 4G (LTE-A) şəbəkələrindən birinə malik olan "Nar" mobil operatoru 21-27 iyul tarixlərində paytaxtımızda baş tutan "XV Avropa Gənclər Yay Olimpiya Festivalı" müddətində 48 ölkəni təmsil edən gənc atletlərin, eyni zamanda festival tamaşaçılarının telekommunikasiya tələblərinə tam şəkildə cavab vermək üçün şəbəkə dayanıqlığının təmin edilməsi işlərini başa çatdırıb.***



Mobil operator "EYOF 2019" tədbirinin tələblərinə cavab vermək, həmçinin olimpiya həyəcanını sosial şəbəkələrdə paylaşmaq istəyən tamaşaçıları yüksəksürətli internetlə təmin etmək məqsədilə təyin olunmuş ərazilər üzrə mobil rabitə şəbəkəsində təhlilləri tamamlayıb. Yarış ərazisi və tədbir məkanlarında müştərilərin tələbləri nəzərə alınaraq mobil rabitə şəbəkəsində tutum əhəmiyyətli dərəcədə genişləndirilib, istifadəçilər üçün yüksəksürətli 4G (LTE-A) texnologiyalı mobil internetdən istifadə imkanları yaradılıb. "Nar" ziyarətçilərin sayının çoxluq təşkil edəcəyi məkanlarda telekommunikasiya xidmətlərindən sabit istifadənin təmin edilməsi üçün müvafiq ərazilərdə mobil baza stansiyası quraşdırıb. Qeyd edək ki, mobil rabitə şəbəkəsinin təhlili və dayanıqlığının təmin edilməsi işləri xüsusi ilə oyunların baş tutacağı 13 yarış ərazisi və paralel olaraq qeyri-yarış ərazilərində həyata keçirilib.

"Nar" əməkdaşları 24/7 rejimində şəbəkəyə nəzarət edərək yarışların keçiriləcəyi məkanlarda mobil rabitə şəbəkəsinin stabilliyini təmin edəcək və şəbəkə istifadəçilərinə dəstək olacaqlar. "Nar" şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək mümkündür.

Qeyd edək ki, yaranan hər hansı bir sualla bağlı "Nar" abunəçiləri yüksəkkeyfiyyətli müştəri xidmətlərindən özlərinə rahat olan istənilən üsulla - Çağrı Mərkəzinə zəng etməklə, şəxsi kabinet, sosial şəbəkələr, SMS və elektron poçt üzərindən yazmaqla yararlana bilər.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2.4 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# 1500-dən çox tələbə oxuduğu məktəbi və ixtisası dəyişmək istəyir

***Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində təhsilalanların köçürülməsi üzrə elektron sənəd qəbulu başa çatıb.***



Təhsil Nazirliyindən SİA-ya bildirilib ki, iyulun 5-dən 20-dək transfer.edu.az portalı vasitəsilə həyata keçirilən elektron sənəd qəbulu zamanı ali təhsil müəssisələrindən köçürülmək üçün ümumilikdə 1535 nəfər müraciət edib. Onlardan 13 nəfərini magistratura səviyyəsi üzrə köçürülmək istəyənlər təşkil edir. Xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alan və köçürülmək istəyənlərin sayı 137 nəfərdir. 1385 nəfər ölkə ərazisindəki ali təhsil müəssisələrindən köçürülmək və təhsil alma formasını dəyişmək üçün müraciət edib. Orta ixtisas təhsili müəssisələrindən köçürülmək istəyənlərin sayı isə 158 nəfər təşkil edir. Hazırda köçürülmək və təhsil alma formasını dəyişmək istəyən tələbələrin müraciətlərinə baxılır. Nəticələrin sentyabrın əvvəlinədək açıqlanması nəzərdə tutulur.

# İnsan hüquq və azadlıqlarının qorunmasında Avropa Şurasının rolu

***5** may 1949-cu il tarixində Londonda Nizamnaməsi imzalanan Avropa Şurası siyasi bir təşkilatdır. Avropa qitəsində insan hüquq və azadlıqlarının qorunması, əsasən, Avropa Şurasının fəaliyyəti ilə bağlıdır. Avropa İnsan Hüquqları Konvensiyası və müvafiq məhkəmə Avropa Şurasının yetirməsidir. İnsan hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası 4 noyabr 1950-ci ildə Romada imzalanmışdır. 10 ratifikasiya fərmanın depozitariyə verilməsindən sonra 3 sentyabr 1953-cü ildə qüvvəyə minmiş və 2008-ci ilin yanvarına olan məlumata görə, Avropa Şurasının bütün üzvlərinin qoşulduğu Konvensiya İnsan Hüquqları haqqında Ümumi Bəyannamədə əks olunmuş əsas insan hüquqlarını müfəssəl şəkildə kodifikasiya etmiş ilk hüquqi öhdəlik daşıyan normativ aktdır. Bununla yanaşı, Konvensiya dövlətlərarası və fərdi şikayətləri müzakirə etmək üçün ilk zamanlar heç də ardıcıl olmayan və iştirakçı dövlətlərin xoş məramından asılı olan, lakin bu gün kifayət qədər işlək beynəlxalq nəzarət mexanizmi yaratmışdır ki, bu da, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, eləcə də, qəbul olunmuş qərarların həyata keçirilməsinə nəzarət edən sistemdən ibarətdir.***

1963-cü ildə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə və ona həvalə edilən Protokolun şərhinə dair hüquqi məsələlər barədə məşvərətçi qeydləri vermək səlahiyyəti verildi. Ədəbiyyat İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası dünyada insan hüquqları sahəsində ən mükəmməl və səmərəli müqavilə kimi qiymətləndirir. Bu, özünü həm də şikayətlərin sayının artmasında büruzə verir. Əgər 1985-ci ilə kimi ildə 600-ə yaxın şikayət qeydə alınırdısa və yalnız iki dəfə bu rəqəm bir qədər artıq olmuşdusa, sonradan bu müraciətlər daim artmış və 1999-cu ildə 5,5 minə çatmışdır. Bunun əksinə olaraq, 1950-1994-cü illərdə dövlətlərin yalnız 19 şikayəti baxılmaq üçün qəbul edilmişdir.

İnsan Hüquqları haqqında Konvensiyanın ehtiva etdiyi hüquqların həcmi, eləcə də, pozulmuş hüquqların bərpası üzrə yurisdiksiyanın təmin edilməsi yavaş cərəyan edən, lakin müvəffəqiyyətli prosesin nəticəsidir. 1 noyabr 1998-ci ildən bu yurisdiksiya, sözsüz, məcburi xarakter kəsb etmişdir. 2003-cü ilin fevralında 13 əlavə Protokol qəbul edilmişdir ki, onların da böyük əksəriyyəti iştirakçı dövlətlər tərəfindən tanınmışdır. Konvensiya sisteminin zəif cəhəti, hər şeydən əvvəl, ondan ibarətdir ki, Konvensiyanın əsasları istisna olmaqla (maddə 2 və 3, maddə 4 bənd 1, maddə 7 və Protokol № 6), iştirakçı dövlətlər 15-ci maddəyə uyğun olaraq, Konvensiya üzrə öz öhdəliklərindən geri çəkilmək və onun təminat verdiyi hüquqları məhdudlaşdırmaq üçün tədbirlər görə bilər ki, bu da, faktiki olaraq, kifayət qədər uzun müddət ərzində baş verməmişdir. Bundan əlavə, məhkəmə qərarların icrasına nəzarət edən Nazirlər Komitəsi lazımi dövlətə birbaşa təsir mexanizminə malik deyildir. Hərçənd, Konvensiya fərdi müdafiə imkanlarını genişləndirmişdir, lakin digər tərəfdən, o, insan hüquqlarının mütəmadi pozuntularının qarşısını ciddi surətdə almaq üçün nəzərdə tutulmamışdır. O da, nəzərə çarpır ki, İnsan Hüquqları haqqında Ümumi Bəyannamədə bəyan edilmiş sığınacaq hüququ burada mövcud deyil.

Konvensiyada əks olunmuş təminatlı hüquqlardan istisnaların bəziləri də artıq köhnəlmiş kimi görünür. Məsələn, alkoqoliklərin, narkomanların və avaraların azadlıq və şəxsi toxunulmazlıq hüququ qəti surətdə məhdudlaşdırılır (maddə 5). 1 noyabr 1998-ci ildə qüvvəyə minmiş və 2007-ci il sentyabrın 6-na olan məlumata görə, Avropa Şurasının bütün 47 üzvü tərəfindən ratifikasiya olunmuş Protokol №11 Konvensiyanın ümumi nəzarət mexanizmini yenidən formalaşdırmışdır. Sistemin qeyd olunan zəif cəhəti də artıq ortadan qaldırılmışdır: indi məhkəmə iştirakçı dövlətin ona münasibətindən asılı olmayaraq, fərdi şikayətləri qəbul edə bilər, fərdi şikayətlər isə, dövlətlərin şikayətləri ilə bir tutulur. Bundan əlavə, iştirakçı dövlətlər məhkəmənin yekun qərarlarını yerinə yetirmək öhdəliyi götürürlər.

Konvensiyanın hüquqi prinsiplərindən aşağıdakıları qeyd etmək lazımdır:

Konvensiya İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 1-ci maddəsinə uyğun olaraq təbii, ayrılmaz hüquq və azadlıqların yozumu konsepsiyasından çıxış edir;

Konvensiyada və əlavə Protokollarda ifadə olunmuş hüquq və azadlıqlar iştirakçı dövlətin yurisdiksiyası altında olan bütün şəxslər üçün, eyni zamanda, vətəndaşlığı olmayan və ya başqa dövlətin vətəndaşı (təbəəsi) olan şəxslər üçün təmin edilir;

Şəxsi həyata və ailə həyatına hörmət hüququ, nikah hüququ, ər və arvadın bərabərliyi hüququ (Protokol № 7);

Təhsil hüququ (Protokol № 1);

Ədalətli məhkəmə prosesi hüququ, cəzanın yalnız qanunla müəyyənləşdirilməsi, cinayət işlərində hüquqi vəzifələrin təminatı hüququ (Protokol № 7), məhkəmə səhvlərinə yol verildiyi hallarda kompensasiya almaq hüququ (Protokol № 7), cinayət qaydasında təkrar mühakimə olunmamaq və cəzalandırılmamaq hüququ (Protokol № 7);

Əcnəbilərin kollektiv şəkildə sürgün edilməsinin qadağan olunması (Protokol № 4), əcnəbilərin sürgünlə bağlı hüquqi müdafiəsi (Protokol № 7);

Mülkiyyətin qorunması (Protokol № 1).

Bütün aşağıda göstərilənlər 1 noyabr 1998-ci ildə qüvvəyə minmiş 11 №-li Protokolda tətbiq edilmiş dəyişikliklərlə bağlı olan yeni prosesə aiddir. 1994-cü ilin mayında qəbul edilmiş bu protokol Avropa Şurasının bütün 47 üzvü tərəfindən ratifikasiya edilmişdir. İslahatlar hərtərəfli olduğuna görə, yekdilliklə bəyənilməsi onun qüvvəyə minməsini şərtləndirmişdir.

Dəyişikliklərin əsas səbəbi iştirakçı dövlətlərin və fərdi şikayətlərin sayının əhəmiyyətli dərəcədə atması, eləcə də, insan hüquqlarının pozulması haqqında iddiaların mürəkkəbləşməsidir ki, bunlar üçün də köhnə prosedur və struktur artıq əlverişli deyildi. O vaxta qədər işlərin müzakirəsinin orta müddəti beş ildən artıq idi. 1994-cü ilin yanvarında məhkəmədə 2700 iş var idi ki, onlardan təxminən 1500-ü müzakirə üçün qəbul edilməmişdi. Dəyişikliklərin əsas məqsədi fərdi şikayətlərin verilməsi prosedurunun sadələşdirilməsi proseslərin sürətləndirilməsi və ümumilikdə, nəzarət mexanizminin gücləndirilməsidir.

Əsas yeniliklər bunlardır:

X Fərdi şikayətlərin verilməsi prosesinin bütün iştirakçı dövlətlər üçün zəruriliyinin tanınması. İndi məhkəmənin qərarları bütün iştirakçı dövlətlər üçün məcburidir;

X Həm fərdi, həm də dövlətlərarası xarakterli bütün şikayət halları vahid orqan tərəfindən (məhkəmə) yoxlanılır və həll edilir ki, bu orqana da birbaşa çıxış mövcuddur (birinci instansiya kimi komissiya ləğv edilmişdir, Nazirlər Komitəsi məhkəmənin qərarlarının icrasına nəzarəti həyata keçirir);

X Strasburqdakı İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yeni struktura və yeni səlahiyyətlərə malik daimi orqana çevrilir (komissiya və məhkəmə əvvəllər dövri olaraq fəaliyyət göstərirdi).

Azərbaycan Respublikası Avropa İnsan Hüquqları Konvensiyasını və onun Protokollarını 2002-ci il aprelin 15-də ratifikasiya etmişdir. Elə həmin il ərzində, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə 123 ərizə daxil olmuşdur. Sonrakı dövrdə bu müraciətlər davam etmişdir. Artıq 2003-cü ilin sonunadək məhkəməyə daxil olan şikayətlərin sayı 500-ü keçmişdir. Ancaq bu, Azərbaycanda həyəcanlı vəziyyət olduğunu deyil, əksinə, əhalinin öz hüquqları uğrunda mübarizə aparmaq imkanları və yolları haqqında məlumatlı olduğunu göstərir. Məsələn, 2002-ci ildə postkommunist məkanından Avropa Məhkəməsinə ən çox məktub Polşadan daxil olmuşdur (4173). Lakin bu, heç də Polşada insan hüquqlarının müdafiəsi sahəsində vəziyyətin həmin ildə cəmi 13 şikayət gəlmiş Ermənistandan pis olduğunu söyləməyə əsas vermir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycan Respublikasının 2001-ci ilin yanvar ayının 25-də Avropa Şurasına daxil olması, daha sonra "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etməsi demokratik ənənələrə, ədalətə, yurisdiksiyası altında olan insanlar üçün fundamental hüquq və əsas azadlıqların təmininə sadiqliyin ifadəsidir.

Son illər respublikamızın universal və regional xarakterli beynəlxalq təşkilatlara daxil olması və çoxsaylı beynəlxalq müqavilələrə qoşulması ilə səciyyələnir. Həmin müqavilələrin mühüm bir hissəsi insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmişdir. Azərbaycan Respublikası tərəfdar çıxdığı beynəlxalq müqavilələri özünün qanunvericilik sisteminə daxil etməklə, beynəlxalq öhdəliklərini yerinə yetirmək yolunu tutmuşdur. Beynəlxalq müqavilələr dövlətlər arasındakı beynəlxalq münasibətlərin tənzimlənməsinin, dövlətlərarası əməkdaşlığın inkişafının əsas vasitəsi olmaqla, milli qanunvericiliyin tərkib hissəsinə çevrilməkdədir.

Beynəlxalq hüququn səmərəliliyi, beynəlxalq müqavilələrin müddəalarının həyata keçirilməsi və beynəlxalq öhdəliklərə əməl olunması dövlət daxilində həyata keçirilən təşkilati və hüquqi tədbirlərdən asılıdır.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində bağlanmış müqavilələrdə dövlətlərin üzərinə götürdüyü öhdəliklər iştirakçı dövlətlərə deyil, onların yurisdiksiyası altında olan insanlara ünvanlanmaqla, ayrı-ayrı fərdlərin hüquqlarının müdafiəsinə yönəlmiş olur. Respublikamızda "pacta sunt servanda" ("müqavilələr icra olunmalıdır") pirinsipinə müvafiq olaraq, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi prosesi davam etməkdədir. İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə görülən tədbirlərin bir hissəsini də məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi və məhkəmə sisteminin müasirləşdirilməsidir.

"Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı da, məhz insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin təmininə, məhkəmə sisteminin müasirləşdirilməsinə və məhkəmə hakimiyyətinin möhkəmlənməsinə yönəlmişdir.

Fərmanda Azərbaycan Respublikasının Ali Məhkəməsinə və digər yuxarı instansiya məhkəmələrinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almaları tövsiyə edilmişdir."

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Səs
Son səhifə
24 iyul

## Bitki yağları insan orqanizmində yüksək kaloriliyi təmin edir



Bitki yağları xörək və salatların əvəzolunmaz qidalarından sayılır. Onların keyfiyyəti kimyəvi tərkibinə və zərərsizlik göstəricilərinə görə qiymətləndirilir.

Bitki mənşəli yağların insan orqanizmi üçün faydalarını saymaqla bitməz. Təsadüfi deyil ki, mütəxəssislər gündəlik rasionda yeməklərdə və salatlarda bitki yağlarından istifadə etməyi məsləhət görürlər. Diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: "Şəkərlər və karbohidratlarla yanaşı yağlar orqanizmin enerji mənbəyi rolunda çıxış edir. Hətta şəkər, karbohidrat və zülallardan fərqli olaraq yağlar insan orqanizmində daha yüksək kaloriliyi təmin edir. Mədə şirəsinin təsirindən bitki mənşəli yağlar daha asanlıqla parçalanır və maddələr mübadiləsinə daxil olur".

İmmun sisteminin güclənməsində mühüm rol oynayan bitki yağlarının uzun müddət ağzı açıq qabda saxlanılması onları istifadəyə yararsız edir. Onların mövcud qaydalara uyğun saxlanılması da keyfiyyətə təsir edən əsas amillərdəndir. Bütün qida məhsulları kimi yağlar da + 18 dərəcə C temperatur həddində saxlanıla bilər. İstənilən ərzaq məhsulunu istifadə edərkən gigiyenik qaydalara əməl etmək lazımdır, çünki təmizlik sağlam qidalanmanın əsas şərtlərindən biridir.

## Çox yemək və arıqlamaq: alimlər inqilabi üsul hazırlayıb



Günümüzdə bir sıra ölkələrdə piylənmə probleminin təhlükəli miqyas aldığını görən alimlər bu sindromun qarşısının alınması istiqamətində tədqiqatlar aparırlar. ABŞ-ın Yel Universitetinin əməkdaşları bu yaxınlarda yeni üsul kəşf ediblər.

"Vistanews.ru" saytında yer alan məlumatda deyilir ki, qlaukoma xəstəliyinin müalicəsində istifadə olunan dərmanların tərkibindəki xüsusi maddəni qəbul etməklə piylənmənin qarşısını almaq mümkündür. Əzələlərdə aparılan eksperiment göstərib ki, bu maddə piylərin qana sorulmasına imkan vermir və onların orqanizmdən xaric olmasına kömək edir. Gələcəkdə tədqiqat müəllifləri insanlara kökəlmədən qidalanma yollarını öyrədəcəklər. Bu məqsədlə, ilk olaraq, çox yemək və kökəlməməyi təmin etmək üçün həmin möcüzəvi maddənin əsasında xüsusi qida əlavələrinin hazırlanması nəzərdə tutulur. Məlum olduğu kimi, piylənmə orqanizm üçün bir sıra fəsadlar yaradır. Belə ki, bu bəlaya düçar olanlar ürək-damar və həzm sistemləri xəstəliklərinə daha çox tutulurlar. Son tədqiqatlar göstərir ki, piy onkoloji şişlərin yaranması və inkişafı üçün əlverişli mühitdir.

Lakin ekspertlər bu cür kəşflərə əvvəlki kimi, şübhə ilə yanaşırlar. Həkimlərin bir çoxu xatırladır ki, piylər sağlam orqanizmin inkişafına kömək edən zəruri komponentdir. Bu cür maddələrdən çox istifadə edilməsi orqanizmdə deqradasiyaya səbəb ola bilər.

## Müştəri çayxana sahibini bıçaqlayıb



Abşeron rayonunda bıçaqlanma hadisəsi baş verib. SİA xəbər verir ki, Xırdalan şəhərində çay evinin sahibi 1984-cü il təvəllüdlü Abdullayev Tural Arzu oğlu müştərilərin biri ilə mübahisə edib. Nəticədə o, ayağından bıçaqlanıb.

Yaralı təcili olaraq xəstəxanaya çatdırılıb. Ona sol budun kəsilmiş-deşilmiş yarası diaqnozu qoyulub və cərrahi əməliyyat edilib. Faktla bağlı araşdırma aparılır.

## Məhkəmə Ronaldo ilə bağlı qərar verdi!





"Yuventus"un futbolçusu Kriştiano Ronaldonun model Ketrin Mayorqaya təcavüz etməsi ilə məhkəmə qərar verib. Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə, ABŞ-ın Las Veqas şəhəri məhkəməsi portuqaliyalı hücumçunu heç bir məsuliyyətə cəlb etməyib. Bildirilib ki, polis istintaqının hesabatı nəzərdən keçirilib və təcavüzlə bağlı sübutların olmadığı aşkarlanıb.

Qeyd edək ki, Ronaldonun 2009-cu ildə Mayorqaya təcavüz etməsi və ona susması qarşılığında 375 min avro verməsi ilə bağlı iddialar yayılmışdı. Ancaq 34 yaşlı oyunçu bu iddiaları təkzib etmişdi.

## "Qarabağ" - "Dundalk" matçının hakimləri açıqlanıb



Futbol üzrə UEFA Çempionlar Liqasının ikinci təsnifat mərhələsində keçiriləcək "Qarabağ" - "Dundalk" cavab oyunu üçün hakim təyinatları açıqlanıb. AFFA-nın saytında yer alan xəbərə görə, "Dalğa Arena"da keçiriləcək matçın baş hakimi Norveç Futbol Federasiyasından Svein Oddvar Moen olacaq. Ona Magnus Lundberg və İsaak Elias Skyeset Başevkin köməklik edəcək. Dördüncü hakim funksiyasını Sigurd Kringstad yerinə yetirəcək.

Qeyd edək ki, "Qarabağ" - "Dundalk" cavab görüşü iyulun 31-i yerli vaxtla 21:00-da başlayacaq. Bu komandalar arasında ilk oyun isə bu gün İrlandiyada keçiriləcək.

## "Neymarı transfer etmək çətindir"



"Barselona"nın yeni futbolçusu Antuan Qrizmann PSJ-nin hücumçusu Neymarın Kataloniya klubuna mümkün qayıdışı haqda danışıb. İspaniya mətbuatının yazdığına görə, o, braziliyalı oyunçunun transferinin çətin olduğunu bildirib: "Neymar çox yaxşı futbolçudur. Bir neçə dəfə zədələndi, amma hələ də əla səviyyədədir. Ancaq bu, çox çətin transferdir. Nələrin olacağını görəcəyik".

Qeyd edək ki, Qrizmann "Barselona" ilə 5 illik müqavilə imzalayıb.

## Yasamalda azyaşlıya qarşı soyğunçuluq edən şəxs saxlanılıb

Yasamal rayonu ərazisində azyaşlıya qarşı soyğunçuluq edərək onun pulunu ələ keçirən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, zərərçəkənin valideynləri Yasamal Rayon Polis İdarəsi 28-ci polis bölməsinə məlumat verərək tanımadıqları şəxsin onların övladlarına yaxınlaşaraq əlində olan 5 manat pulu soyğunçuluq yolu ilə aldığı barədə məlumat veriblər. Həmin cinayəti törətməkdə şübhəli bilinən şəxs, əvvəllər məhkum olunmuş paytaxt sakini Rəsul Hüseynov bölmə əməkdaşlarının həyata keçirdikləri əməliyyat nəticəsində saxlanılıb. O, ifadəsində hadisəni törətdiyini etiraf edib.

Saxlanılan şəxsin ətrafında aparılan əlavə əməliyyat tədbirləri zamanı onun bir neçə ay əvvəl paytaxt sakini olan bir qadının pul kisəsini oğurladığı da müəyyən edilib. Həmin vaxt Rəsul Hüseynov zərərçəkənə 500 manat maddi ziyan vurub.

Faktla bağlı 28-ci polis bölməsində toplanan materiallar araşdırılması üçün Yasamalı Rayon Polis İdarəsinə göndərilib, istintaq tədbirləri davam etdirilir. Oğurluq və soyğunçuluq etməkdə şübhəli bilinən həmin şəxsin digər cinayətlərdə də iştirakı istisna olunmur. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar olarsa, bu barədə Daxili işlər Nazirliyinin 102 - Zəng Mərkəzinə, Yasamal Rayon Polis İdarəsinə və ya 28-ci polis bölməsinə müraciət edə bilərlər.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600